F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Təbiəti qorumaq Vətəni qorumaq deməkdir!

**Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi münasibətilə iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək məqsədilə kitabxanalarda ekoloji tərbiyə ilə bağlı biliklərin gənc kitabxanaçılara, oxuculara çatdırılması üçün mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Təbiəti qorumaq Vətəni qorumaq deməkdir!** Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi münasibətilə iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək məqsədilə Uşaq kitabxanalarında ekoloji tərbiyə ilə bağlı biliklərin gənc kitabxanaçılara, oxuculara çatdırılması məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ruhiyyə Məmmədli ixt.red. və burax.məsulŞ.Qəmbərova;-Bakı:F.Köçərliad.Respublika Uşaq Kitabxanası, 2024. - 52s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## Giriş

"COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

COP nədir?

Tərəflər Konfransı (COP), Paris Sazişi və Konvensiyası üzrə irəliləyişə nail olmaq və ən son elmi tədqiqat və məlumatlara əsasən qlobal istiləşməni 1,5°C-ə qədər məhdudlaşdırmaq üçün hökumətlərin beynəlxalq səyləri qiymətləndirdiyi Tərəflər Konfransının rəsmi tədbirləridir.
COP tədbirləri zamanı dünya liderləri irəliləyişləri qiymətləndirmək və iqlim dəyişmələri ilə mübarizədə ən yaxşı həll yolları barədə müzakirələr aparmaq məqsədilə bir araya gəlirlər. Hazırda Konvensiya 198 Tərəfdən (197 ölkə və Avropa İttifaqı) ibarətdir. Növbəti konfrans noyabr ayında Bakıda keçiriləcək.

COP "Conference of the Parties", yəni Tərəflərin Konfransı adlanır və adındakı 29 rəqəmi tədbirin sayca 29-cu olduğuna işarə edir.

Bundan əvvəlki tədbir - COP28 keçən il Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində baş tutub.

COP29-un bir sıra iqlim dəyişikliyi məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir.

COP tədbirlərində, adətən, gündəlik müəyyən edilir və tədbir zamanı müzakirələrdən sonra yekun sənəd qəbul edilir.

Almaniyada keçirilən Petersberq İqlim Dialoqu zamanı COP29-da builki dialoqun əsas mövzusunun iqlim dəyişikliyinin azaldılması tədbirlərinin maliyyələşdirilməsi olacağı açıqlanıb.

COP29-un saytında yazılıb ki, "COP29 Sədrliyi ambisiyaların artırılması və fəaliyyətə təkan vermək üçün bir-birini qarşılıqlı şəkildə dəstəkləyən iki istiqamətə əsaslanan plan hazırlayıb".

## Fəaliyyət Çərçivəsi

### Əsas hədəfimiz

Qlobal istiləşməni 1,5°C səviyyəsində saxlamaq öhdəliyinin təmin olunması hər birimizin mənəvi borcudur. Lakin imkanlar tükənir və gələcəyimizi qorumaq üçün artıq bu gün diqqətimizi investisiyaların yatırılması məsələsinə yönəltməliyik. Bizim əsas prioritetimiz qlobal istiləşməni nəzarətdə və temperatur artımını 1,5°C-dən aşağı saxlamaq üçün emissiyaların azaldılması istiqamətində əsaslı, çevik və dayanıqlı fəaliyyət göstərmək, bu təşəbbüs çərçivəsində bütün tərəfləri bir araya gətirməkdir.

### Ambisiyaların artırılması və fəaliyyətə təkan

Sədrliyin COP29 planı bir-birini qarşılıqlı şəkildə dəstəkləyən iki yanaşı istiqamətə əsaslanır. Ambisiyaların artırılmasını nəzərdə tutan birinci istiqamət bütün tərəflərin iddialı milli planlara və şəffaflığa sadiqliyini təmin etmək üçün əsas komponentləri özündə ehtiva edir. Fəaliyyətə təkan verməyi nəzərdə tutan ikinci istiqamət isə ambisiyaları fəaliyyətə çevirmək, emissiyaları azaltmaq, iqlim dəyişmələrinə uyğunlaşmaq, itki və zərəri aradan qaldırmaq üçün əsas vasitələrdən biri olan maliyyənin vacib rolunu əks etdirir.

### İnklüziv nəticələr üçün inklüziv proses

COP29 Sədrliyi maraqlı tərəfləri dinləyir və onlarla əməkdaşlıq edir. Sədrlik hər kəsin səsinin eşidilməsinə və fikirlərinin nəzərə alınmasına, ortaq həllər vasitəsilə inklüziv nəticələrin əldə edilməsinə çalışır. Birlikdə müsbət irəliləyiş əldə edə biləcəyimizə inanırıq.

### Azərbaycanın yaşıl enerjiyə keçidlə bağlı təşəbbüsləri

Azərbaycan bərpa olunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu, həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40% azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30%-ə çatdırmaq və yaşıl enerji sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1,5oC hədəfinə uyğun olaraq növbəti Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcək.

**Külək:** Azərbaycanın quruda və dənizdə mövcud olan zəngin külək enerjisi resursları dayanıqlı enerji istehsalı üçün mühüm imkanlar yaradır. Ölkə külək enerjisi üzrə quruda 3 QVt həcmində qiymətləndirilən iqtisadi potensiala, həmçinin dənizdə 157 QVt təşkil edən texniki potensiala malikdir. Bu potensialın reallaşdırılması istiqamətində mühüm addımlar atılıb. “ACWA Power” və “Masdar” kimi beynəlxalq investorlarla həyata keçirilən layihələr bunun bariz nümunəsidir.

https://cop29.az/az/pages/wind

**Su:** Hidroenerji ölkənin illik elektrik enerjisi istehsalının təqribən 10 faizini təşkil edir. Ölkənin şirin su ehtiyatlarının təxminən 25 faizi yaşıl enerji zonaları kimi müəyyən edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında cəmləşir. Bu potensial həmin ərazilərdə 2050-ci ilədək xalis sıfır hədəfinə çatmaq üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycanın hidroenergetika infrastrukturunun tacı 424 MVt qoyuluş gücünə malik Mingəçevir Su Elektrik Stansiyası hesab olunur.

https://cop29.az/az/pages/hydro\

Günəş: Azərbaycanın iqtisadi cəhətdən səmərəli günəş enerjisi potensialı 23 QVt həcmindədir. Günəşli saatların sayının ildə 2400-3200 saata çatması Azərbaycanı günəş enerjisi istehsalı üçün əlverişli ölkəyə çevirir. 2023-cü ilin oktyabrında 230 MVt-lıq Qaradağ Günəş Elektrik Stansiyasının açılışı olub. Eyni zamanda, bir sıra digər layihələr reallaşdırılmaqdadır. Ölkə günəş enerjisi üzrə maraqlı tərəflərlə müqavilələr imzalamağa davam edir. Azərbaycan günəş enerjisi infrastrukturunun genişləndirilməsi prosesində dövlət və özəl sektordan olan tərəfdaşlar, o cümlədən biznes təmsilçiləri və inkişaf bankları, bir sözlə, COP29 çərçivəsində danışıqların mərkəzi olan maraqlı tərəflər ilə əməkdaşlıq edir.

https://cop29.az/az/pages/solar

Yaşıl hydrogen: Azərbaycan 2023-cü ilin fevralında Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə aşağı karbonlu hidrogen istehsalını araşdırmağa başlayıb. Ölkə yaşıl hidrogen sektoru ilə bağlı planlarını həyata keçirmək üçün fəal surətdə çalışır. Beynəlxalq investorlarla imzalanan əməkdaşlıq müqavilələri ortamüddətli dövrdə 10 QVt-a yaxın bərpaolunan enerji güclərinin reallaşdırılmasına imkan yaradacaq ki, bu da öz növbəsində yaşıl hidrogen istehsalına töhfə verə bilər.

https://cop29.az/az/pages/green-hydrogen

**Təbiət insanın ən böyük həmdəmi, ilham mənbəyidir**

Təbiət öz çalarları, təzadları ilə gözəldir. İstisi-soyuğu, yaxını-uzağı, yaxşısı-yamanı ilə. Onda heç nə artıq deyil. Hamısının yeri var - fəlakətinin də, səxavətinin də. Təbiət canlı orqanizm olmaqla, insan ömrünü də, sanki özünə uyğunlaşdırıb, dörd fəslə bölüb. Uşaqlıq, gənclik, ahıllıq və qocalıq. Ulu Zərdüşt hələ çox-çox əvvəllər insan həyatı üçün ən zəruri olan dörd ünsürün (od, torpaq, hava, su) adını çəkmişdir. Doğrudan da, bu dörd ünsürdən biri olmazsa, həyat dayanar. Təbiət anadır, insan isə onun övladıdır. İnsanı əzəli və son beşiyi olan ana təbiətdən bircə anlığa da təcrid olunmuş təsəvvür etmək mümkün deyildir. Rəssam da, bəstəkar da, şair də öz əsərlərində təbiətin min bir gözəlliyini vəsf edir. Lakin onlar təbiətin yaratdığını tam əks etdirə bilmirlər. Elə buna görə biz təbiətin yaratdıqlarına təkrarsız gözəllik kimi baxırıq. Adi qanqal çiçəyinin rəng çalarlarını çəkməyə, əks etdirməyə nə rəssam fırçasının, nə də şair sözünün qüdrəti çatır. Təbiət öz sərvətlərini bizə bəxş etməklə yanaşı, eyni zamanda ruhumuza, hiss və duyğularımıza qida verir. Onun qoynuna fəsillər boyu gah

qaranlıq çökür, gah nur ələnir. Təbiəti sevən adamlar mənən zəngin, həssas olur, vətəni sonsuz məhəbbətlə sevir, dostluqda, yoldaşlıqda etibarlı, sədaqətli adamlar kimi seçilirlər. Günəşi, Ayı, ulduzu, torpağı, gül-çiçəyi, dağları, meşələri, çayları, dənizləri düşündükcə fikirlər, xəyallar bizi qanadına alıb göylərə aparır. O göyə ki, hələ də sirli-sehrli olaraq qalır. Təbiət özü canlı bir tablodur. Onun qorunması problemlərinin həllini insanın təbiətə olan məhəbbətində, insan həssaslığında axtarmalıyıq. Azərbaycan təbiəti zəngin bir muzeydir. Burada mövcud 11 iqlim qurşağından 9-nun olması onu daha zəngin və rəngarəng edib. Təbiətin Azərbaycana bəxş etdiyi zəngin yerüstü və yeraltı sərvətlər xalqımızın tarixində müstəsna rol oynamış, bu torpağın füsunkar təbiəti nadir istedad sahibi olan böyük sənətkarlarının ilham mənbəyi olmuşdur.

Sevimli şairimiz H.Arif söhbətlərinin birində bu fikirləri söyləmişdir: İnsan o qədər mehriban, qayğıkeş olmalıdır ki, "Bülbül enib budaqdan çiynimizə otursun", "Oğrun baxışlı maral sərin çeşmə başında bizə qonaq olsun. Gəlin elə edək ki, düzləri keçə-keçə insanın arxasınca ceyran şəhərə gəlsin".




Ekologiyanın və təbiətin qorunması məsələlərini təbliğ edəcək hər bir müəssisənin rəhbəri ekologiyaya aid ətraflı nəzəri biliyə və müəyyən praktiki vərdişlərə yiyələnməli, təbiəti mühafizəyə dair qanunvericiliyi bilməli, gündəlik fəaliyyətində onları tətbiq etməyi bacarmalıdır. Kitabxanaların qarşısında duran ən mühüm vəzifələrdən biri Respublika rəhbərliyinin ekoloji siyasətini oxuculara çatdırmaqdır. Xüsusən uşaq kitabxanalarında gənc nəslin təlim-tərbiyəsinə kömək etmək məqsədilə (bağça və məktəblərdə) ictimai təbliğat vasitələrindən istifadə etməklə oxucuların ekoloji cəhətdən savadlanmasından başlamaq lazımdır. Doğma yurdun təbiətini, onun flora və faunasını qorumaq, yaşıllıq yaratmaq, ağac əkmək və becərmək kimi vərdişlər uşaqlara kiçik yaşlarından aşılanmalıdır. Bu məqsədlə kitabxanalarda təbii sərvətlərin qorunmasına məhəbbət ruhunda tərbiyə işi aparmaq, bitki və heyvanat aləminin əhəmiyyətini onlara izah etmək, təbiətə qarşı mərhəmətli və qayğıkeş olmaq hissini aşılamaq lazımdır. Axı bizim gələcək nəslimizə yaşıllıq, təmiz su, quşların oxuması, yerdəki bütün gözəlliklər lazımdır. İnsanın formalaşmasında, yetkinləşməsində təbiətin, ətraf mühitin böyük əhəmiyyəti və təsiri vardır. Bu baxımdan ətraf mühitin qorunması, təbiətə qayğı ümumxalq işidir. Bu işi həyata keçirməkdə bütün vətəndaşlar iştirak etməlidir. Çünki uşaqların tərbiyəsində və formalaşmasında təbiət az rol oynamır. "Dünyanı, təbiəti, insanları qoruyaq" başlıqlı metodik vəsaiti işləməkdə elmi-metodika şöbəsi olaraq məqsədimiz gənc kitabxanaçılarımızı, oxucularımızı bu mövzuda maarifləndirmək, bu sahədə uşaq kitabxanalarında təşkil oluna biləcək tədbirlərlə bağlı metodik köməklik göstərməkdir.Təbiəti qorumaq üçün əslində böyük

fədakarlıqlar etməyə ehtiyac yoxdur, çünki ilk baxışdan çox kiçik və sadə əməllər belə böyük qatqıdır.

Dişlərinizi fırçalayarkən suyu bağlayın. Beləliklə, 20 litr suya qənaət etmək mümkündür.

Kağızın hər iki tərəfində çap edin. İl ərzində 10 milyon ton kağız atılır. Kağızın hər iki tərəfində çap etsək bu rəqəmi iki dəfə azaltmış olarıq.

Paltarları paltaryuyan maşında qurutmayın. Onu balkonunuzdaki ipdən asın. Beləliklə, həm paltarlarınız sizə uzun müddət xidmət edəcək, həm də siz enerjiyə qənaət etmiş olacaqsınız.

Həftə ərzində 1 gün vegetarian olun. Bu orqanizminiz üçün də, təbiət üçün də böyük bir faydadır.
Paltarları sərin suda yuyun. Beləliklə gündə 100 min barel neftə qənaət etmiş olacaqsınız.

Kağız salfetlərdən daha az istifadə edin. Gün ərzində hər bir insan orta hesabla 6 kağız salfetdən istifadə edir. Yəni ildə 2200 ədəd. Bütün insanların birlikdə istifadə etdiyi kağız salfet sayını düşünün.

Şüşələri geri çevrilmə fabriklərinə verin. Geri çevrilmiş şüşə havanın çirklənməsini 20%, suyun çirklənməsini isə 50% azaldır. Geri çevrilməmiş şüşənin təbiətə qarışması isə milyonlarla il çəkir.

Kağızları geri çevrilmə fabriklərinə verin. Beləliklə, həftədə yarımmilyon ağacı xilas etmiş olacaqsınız.

Hədiyyə paketlərindən istifadə etməyin. Kreativliyinizi işə salın. Hədiyyələri köhnə qəzetlərə bükün.

Qabları qabyuyan maşına qoyarkən yaxalamayın. Buna həqiqətən ehtiyac yoxdur. Sadəcə qida qalıqlarını götürün və qabları maşına yerləşdirin.

Ağac əkin. Bu hər bir kişinin borcu olmaqdan əlavə, həm də təbiət üçün böyük qatqıdır.
«İkinci əl» məhsullarından istifadə edin. Kitablar, velosipedlər, və s. Bunda pis heç nə yoxdur.

Yerli məhsullar alın. Beləliklə, həm yerli iqtisadiyyatı dəstəkləmiş, həm də təbiətə daha az ziyan vermiş olacaqsınız.

Plastik fincan əvəzinə öz fincanınızdan istifadə edin. İnanın, qəhvəniz daha dadlı olacaq. Ən əsası isə, təbiətdən heç nə almayacaqsınız.

İşıqları söndürün. Otaqdan 10 dəqiqəlik də çıxdığınız zaman işığı mütləq söndürün. Beləliklə, həm lampa sizə daha uzun müddət xidmət edəcək, həm enerjiyə qənaət etmiş olacaqsınız, həm də otağın istilik tepmeraturu dəyişəcək.

Alışqan əvəzinə kibritdən istifadə edin. Atılmış alışqanların təbiət qarışması əsrlər alır. İstifadə etmədiyiniz əşyaları atmağa tələsməyin. Düşünün, bəlkə onlar kimin üçünsə faydalı olacaqdır.

Biletləri online sifariş edin. Kağız biletlərlə müqayisə də bu üsul təbiətdən nisbətən az şey alır.

Polietilen paketlərdən istifadə etməyin. Onlar təbiətə qarışmır və nəticədə dənizə atılaraq orada yaşayan canlıları zəhərləyir.

Bu öyrəndiklərinizi paylaşın. Təbiəti qorumaq hər bir insanın borcudur. İnanın o, mütləq təşəkkürünü bildirəcək.



**Görkəmli şəxslərin ekologiya haqqında söylədikləri fikirlər:**

Təbiət Allah tərəfindən yaradılıbdır. Onu qorumaq isə bizim müqəddəs vəzifəmizdir. Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsildiyini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm. Bir də deyirəm - kim hansı bir sağlam ağacı kəsirsə hesab edin ki, o mənim qolumu, barmaqlarımı kəsir… İnsan qurmalıdır, yaratmalıdır… Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız.

Heydər Əliyev,

Azərbaycan xalqının ümummilli lideri

Əgər meşələr qırılarsa, yayda müsəlləh sədası, qışda isə təzək tüstüsü göylərə ucalar.

Həsən bəy Zərdabi,

İslam dünyasının ilk təbiətşünas alimi, publisist

Yazbaşı bizim yerlərin səfası birə-min artır. Düz yolun sağında-solunda ucalan palıd, çinar, qoz ağacları səmada başbaşa verir, yaşıl don geymiş bahar bayramı üçün salamlaşır. Arxlardan axan dağ suları pıçıldaşır, rəngbərəng çiçəklər aləmə bihuşedici ətir saçır, maşın şümal asfaltın üzərində süzüb getdikcə, adam həsrətini çəkdiyi gözəl təbiətdən doymur.

Mir Cəlal,

Xalq yazıçısı

Həm yerin, həm göyün sirrini aşkar,

Oxudum bir gülün ləçəklərindən.

Böcəklər, çiçəklər, güllər, arılar

Kim deyir ayrıdır biri-birindən?

Eşqdir yaşadan təbiəti də,

Çiçəklər torpağın min bir rəngidir.

Böcəklə çiçəyin məhəbbəti də

Ana təbiətin öz ahəngidir.

Bəxtiyar Vahabzadə,
Xalq şairi

Zülmət gecələrdə parlayan şimşək,
Yol üstə göz qırpan mayak deyilmi?
Gəlin təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi.

Hüseyn Arif,

Xalq şairi

Təbiət elminin əsas məsələlərindən başı çıxan insan baxılan problemlərə dair asılılıq olmadan, ideyalar yaratmaq iqtidarında ola bilər.

Nəsirəddin Tusi,

filosof

Təbiətdə heç nə şərti olaraq baş vermir, hər bir hadisə digərlərinə təsir göstərir və əksinə: Bu danılmaz fakta təbiətşünasların göstərdikləri biganəlik hissi əksər hallarda həyatda hətta ən sadə şeyləri belə aydın görməyə imkan vermir.

Fridrix Engels,

mütəfəkkir, iqtisadçı

Dünyada qüvvələr çoxdur, lakin təbiətdə insandan qüvvətli heç nə yoxdur. Təbiətlə insan üzvi əlaqədədir, lakin son illərdə ana təbiətlə onun övladı arasında müəyyən mübarizə başlanmışdır. Elə bil insan həddini aşaraq hər dəqiqə təbiətə təslim aktını imzalamağı təklif edir. Lakin onu unutmaq olmaz ki, insan təbiətlə maddi tarazlıq halında mövcuddur. O, özünə lazım olan hər cür maddi nemətləri təbiətdən götürür.

**Sofokl,**

yunan yazıçısı

Hər şey torpaqdan yaranır, hər şey son nəticədə torpağa qayıdır.

**Ksenofon,**

filosof-təbiətşünas

Təbiətə qarşı öz əməllərimizlə bizim səhv etməyə haqqımız yoxdur.

**Çarlz Elton,**

ekoloq

Həyat yerin cansız kimyəvi səthini əbədi, fasiləsiz pozan böyük qüvvədir.

**Vladimir İvanoviç Vernadski,**

akademik

Gözü intizarda hər axşam-səhər.

Təbiət haqq-hesab istəyir bizdən.

Bu gün bacalardan çıxan tüstülər,

Sabah çıxacaqdır əsəbimizdən.

**Tofiq Mütəllibov,**

şair

Allah insanı təbiəti sevmək üçün yaratmışdır.

**"Avesta"dan**

## Kitab sərgisi




































https://drive.google.com/file/d/1X_vDg4NGuDx61N-PCyCMSGscehE7-fOQ/view

https://drive.google.com/file/d/1OCTHCjCH-hMD4M8v9OOqAe1YQE4Rcu9P/view

https://drive.google.com/file/d/1VU4RCjveCYF901BjLHDTz7nXUGgQ_N9x/view

Nümunə üçün F.Köçərli adına RUK-da təşkil olunan “Dünyanı, təbiəti, insanları qoruyaq” adlı geniş sərgi formasını veririk:

1. Başlıq: “Dünyanı, təbiəti, insanları qoruyaq”;
2. Ekologiya. Dünyamızın bu günü və sabahı;
3. Təbiət. Bildiklərimiz və bilmədiklərimiz;
4. Yer kürəsi. Planetimiz olduğu kimi;
5. Heyvanlar aləminin ensiklopediyası.1-ci kitab;
6. Budaqov B.Ə. Azərbaycan təbiəti;
7. Mirzəyev M. Doğma yurdu gəzə-gəzə;
8. Əliyev H. Həyəcan təbili;
9. Əliyev H., Həsənov X.Təbiətin keşiyində;
10. İsabəyli Q. Ay külək, nə əsirsən;
11. Səhhət A. Quşlar;
12. Sabir M.Ə. Yaz günləri;
13. Rza R. Heyvanların yuxusu;

Uşaqların ekoloji tərbiyəsi. 1-ci kitab;

Uşaqların ekoloji tərbiyəsi. 2-ci kitab;

Uşaqların ekoloji tərbiyəsi. 3-cü kitab;

Təbiət mənzərəsi və altında şeir:

Hər vaxt təbiəti gətirək yada,
O bizi duyğusuz, ruhsuz sanmasın.
Yollar uzansa da, yollar artsa da,
Meşələr pozulub yaralanmasın.

H.Arif

**Təbiəti qorumaq Vətəni qorumaq deməkdir!**

Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir. Ona görə də qurub yaradın.

**Heydər Əliyev,**

*Azərbaycan xalqının ümummilli lideri*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra digər sahələrdə olduğu kimi ətraf mühitin mühafizəsi sahəsində də öz müstəqil siyasətini formalaşdırmağa başladı. Ekoloji problemlər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ümummilli liderimiz, suveren Azərbaycanımızın qurucusu Heydər Əliyevin daim nəzərində olmuşdur. Vətənini ürəkdən sevən bu şəxs respublikamızın üzləşdiyi ekoloji problemləri görmüş və onların aradan qaldırılması üçün var qüvvəsi ilə çalışmışdır. O, bu məqsədlə ətraf mühitin mühafizəsinə və insanların sağlamlığına təminat yaradan mütərəqqi texnologiyaya malik yeni müəssisələrin tikilməsinə, yaşıllıqların və parkların salınmasına, ekologiya sahəsində mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirmişdir.

1995-ci ilin noyabr ayının 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasında ilk dəfə olaraq "Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır" (39-cu maddə) maddəsi öz əksini tapdı. Bu maddənin icrası üçün Azərbaycan Respublikasının Milli Məclisi ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən istifadə olunması ilə bağlı çoxsaylı qanunlar qəbul etdi. Eyni zamanda bu qanunların pozulması ilə əlaqədar olaraq, müvafiq məsuliyyətlər də (inzibati və cinayət məsulliyyətləri) müəyyənləşdirildi. 1999-cu il 8 iyunda "Ətraf Mühitin Mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanunda hər kəsin ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifələri öz əksini tapdı. Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərin səmərəli istifadəsi haqqında bilgilərin məcmusudur. Müasir dövrümüzdə təbiətin mühafizəsi qlobal və ümumbəşər problem olmaqla bütün dünya xalqlarını düşündürür. Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur. Hazırda respublikamızın üzləşdiyi ən ağır problemlərdən biri ermənilərin müharibə nəticəsində təbii sərvətlərimizə və ətraf mühitə vurduğu ziyanlardır. Həmin ərazilərdə 155 növ yeraltı və yerüstü sərvət, o cümlədən 15 qızıl, 6 civə, 2 mis, 13 müxtəlif növ tikinti daşları yatağı və s. yerləşir ki, bu da ölkəmizin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın bitki örtüyünə, meşələrinə amansız divan tutulmuşdur. Dağlıq Qarabağ və onun ətrafında gedən hərbi əməliyyatlar nəticəsində 250.928 hektar meşə sahəsi, o cümlədən Zəngilan rayonundakı Bəsitçay və Laçın rayonundakı Qarabağ dövlət qoruqları, həmçinin dörd təbiət yasaqlığı, digər çoxsaylı təbiət abidələri amansızlıqla məhv edilmişdir.

Görkəmli rus alimi və ədəbiyyatşünası Dmitri Sergeyeviç Lixaçovun fikrinə görə, "ekologiyada iki bölmə var: bioloji bölmə və mədəni və ya mənəvi ekologiya. Və təbiətlə mədəniyyət arasında dəqiq sərhədin olmadığı kimi bunların arasında da sərt bir uçurum yoxdur. İnsanla təbiət arasındakı münasibət – iki mədəniyyətin münasibətini əks etdirir ki,

bunların da hər biri ayrılıqda sosialdır, ümumyaşardır və davranış qaydalarına malikdir. Və onların görüşü özünəməxsus mənəvi əsaslar üzərində qurulur. Onlardan biri (təbiət mədəniyyəti) digəri olmadan (insan mədəniyyəti) mövcud ola bilər, digəri isə yox".

Ekoloji biliklər yaş və peşədən asılı olmayaraq, hamı üçün lazımdır. Ətraf mühit insanın yaşadığı, fəaliyyət göstərdiyi mühitdir. Təbii ki, insanın sağlam olması ətraf mühitin təmizliyindən asılıdır. Ekoloji mühit nə qədər təmiz olarsa, insanlar da sağlam və uzunömürlü olar. Ekoloji mühitin təmizliyi isə torpağın, havanın və suyun təmizliyi ilə ölçülür.

Təəssüf ki, əhalinin çox hissəsi insan fəaliyyəti ilə ətraf mühit arasındakı sıx əlaqəni dərk etmir. Bu da əhalinin lazımi ekoloji biliklərə malik olmamasından, yaşadığı ərazinin ekoloji problemlərindən xəbərsiz olmasından irəli gəlir. Bu sahədə olan problemləri həll etmədən, ümumiyyətlə, cəmiyyətin, həmçinin hər bir insanın və nəhayət, bütövlükdə təbiətin mövcudluğu mümkün deyil.

Təbiət deyəndə ilk növbədə ətraf mühit-meşələr, bağlar, yer, göy, torpaq gözlərimiz qarşısında canlanır. Doğma təbiətin gözəlliyini duymağı bacarmaq hər bir insan üçün vacibdir.

Ekoloji tərbiyə insanlara təbiətdən istifadə etmək işində məsuliyyət hissi aşılayır. Uşaqlar hələ erkən yaşlarından təbiətin taleyi haqqında düşünməyi bacarmalı və ətraf mühitin qorunmasında fəal iştirak etməlidirlər.

Təbiətə məhəbbət onun qorunması ilə bağlıdır. Təbiətin qorunması isə sağlamlığın mühafizəsi deməkdir. Mühit çirkli və zəhərli olarsa, insanı heç bir qida təmin edə bilməz. İnsan üçün əvəzedilməz qida havadır. Havanın və eyni zamanda suyun, torpağın çirklənməsi insan sağlamlığı üçün təhlükə yaradır, insanlarda müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Əgər hava yer üzərindən tamamilə yoxa çıxarsa bütün canlı aləm məhv olar. İnsan qidasız beş həftə, susuz beş gün, havasız isə beş dəqiqə yaşaya bilməz. Təbii sərvətlərin mühafizəsi və onların artırılmasını insanın mənafeyi tələb edir. Hər hansı bir yenilik insanın rifahının yaxşılaşmasına, sağlamlığının möhkələnməsinə xidmət etməlidir. İnsan sağlamlığı isə onu əhatə edən təbii mühitdən asılıdır. Suyun da çirklənməsi nəticəsində müxtəlif xəstəliklər meydana çıxır. Təmiz su sağlamlığı möhkəmlədir və bir çox xəstəliyin əmələ gəlməsinə mane olur. Su yeganə təbii ehtiyatdır ki, istehsalın heç bir sahəsi onsuz keçinə bilməz. Su insan həyatının ayrılmaz hissəsidir. Su olan yerdə həmişə təmizlik, abadlıq olar. Gözəl şairimiz Davud Ordubadlının "Səxavət" şeirində deyildiyi kimi:

Onunçün sevməyək ki, Axar bulaqları biz Suları ləzzətlidir.

Onun üçün sevək ki, Fitrətən, təbiətən Onlar səxavətlidir.

Su milli sərvətdir, xalqın sağlamlığıdır. Suyun çirklənməsinə bəzən təbii fəlakətlər də səbəb olur. Xüsusən son illər baş verən sel və daşqınlar bizim təbiətimizə böyük ziyan vurur. Kür çayının daşması nəticəsində torpaq və su çirklənir, bu da ekoloji vəziyyətin pisləşməsinə, respublikamızın bəzi aran rayonlarında bir çox xəstəliklərin, xüsusilə malyariya xəstəliyinin

yayılmasına şərait yaradır. Dövlətimiz tərəfindən bunun qarşısını almaq üçün bu rayon ərazilərində (Salyan, Neftçala) evkalipt ağacı əkilir. Çünki bu ağaclar xəstəliyin qarşısını ala bilən ən gözəl vasitələrdən biridir. Göründüyü kimi yenə də insanı fəlakətdən qurtaran təbiətin özüdür. Deməli, təbiəti qorumaq və sevmək lazımdır. Hazırda suyu, torpağı, havanı tullantılarla çirkləndirən zavod və fabriklərdə atmosferə atılmamışdan qabaq qazları zərərsizləşdirən yeni üsullar işlənib hazırlanır. Avtomobil nəqliyyatının da zərərli tullantılarının təsirini azaldan xüsusi üsullar mövcuddur. Ekologiyanın sosial problemləri bədii ədəbiyyatda da öz həllini gözləyən, olduqca vacib məsələdir. Son zamanlar aşkarlığın, demokratiyanın yaratdığı imkan nəticəsində torpağın zəhərlənməsi, yaşıllığın azalması, atmosferin çirklənməsi, Xəzərin taleyi haqqında şeirlər haray salır. Bu isə ekoloji vəziyyəti yaxşılaşdırmaq uğrunda mübarizədə xeyirxah çağırışdır. Şair Əhməd Cəmilin "Dünyanın gözəlliyi", Zəlimxan Yaqubun "Qırılan meşələr" şeiri ekoloji əhəmiyyət kəsb edən şeirlərdəndir. Şair Xəlil Rza, Əli Kərim, Məmməd Araz, Hidayətin, Əliağa Kürçaylının şeirləri də oxucular arasında maraq doğurur.

Sonda məşhur Amerika ekoloqu A.Leordun sözlərini xatırladırıq. O, Yer kürəsini əvvəli və sonu olmayan bir çaya (Round river) bənzədərək göstərmişdir ki, insanlar bu axına çox ehtiyatla yanaşmalıdırlar. İnsanlar, unutmayın və agah olun, yaşadığınız "Round river" hazırda təhlükə qarşısındadır, bu təhlükənin sonuncu qurbanı isə bütün canlı aləm, o cümlədən sizlər olacaqsınız! Gec də olsa, təbiətə, onun sərvətlərinə münasibətinizi dəyişin!

Yaşadığımız dünya, bizi əhatə edən maddi aləm çox gözəl və rəngarəngdir. Əslində elə biz özümüzdə təbiətin bir zərrəsiyik. Biz insanlar təbiətə qayğı və məhəbbətlə yanaşmalı onun bitkilər aləmi olan-florasını, canlılar aləmi olan-faunasını qorumalıyıq. Sağlamlığımızda, yaşayışımızda təbiətdən asılıdır. Təbiətin ayrılmaz hissələrindən biri də meşələrdir. Almanlar meşələr haqqında çox mənalı və müasir bir ifadə səsləndiriblər. Hansı ki bu ifadə "Yaşıl ciyər" ifadəsidir. Yaşıllıq insana çörək qədər lazımdır. Həm də çörəksiz insan məhv olduğu halda, yaşıllıqsız bütün canlılar aləmi məhv olur. Meşələr bizim sərvətimizdir. Məlum məsələdir ki, meşələri-Yer kürəsinin yaşıl kəmərini bircə an təsəvvür etməsək, demək bəşərdə yoxdur. Təəssüf ki, son zamanlarda baş verən təbii qazın azlığı, kənd təsərrüfat işləri meşələri sıxışdırır. Bu insanlara qarşı törədilmiş ən ağır müharibədir. İnsan zəkası, ağlı bu müharibələri dəf etməyə qadirdir. Biz təbiətin qədrini bilməyən,onu korlayan insanlara qarşı mübarizə aparmalıyıq, onun gözəlliyini mühafizə etməliyik. Azərbaycan ətraf mühitin qorunmasına, iqlim dəyişmələrinin mənfi təzahürlərinin qarşısının alınmasına xüsusi önəm verir. Ölkəmizin 2030- cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası elan edilməsi, 2024-cü ilin "Yaşıl Dünya Naminə Həmrəylik İli" elan olunması bu sahədə aparılan məqsədyönlü tədbirdir. BMT-nin İqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ( COP 29) iştirakçı ölkələrin qərarı ilə 2024-cü ildə Azərbaycanda keçiriləcək. İştirakçılarının sayına, səviyyəsinə, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyada ən mötəbər tədbirlərdən hesab olunur. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP 29) iqlim böhranının həlli yönündə çalışmaların

əlaqələndirilməsi,onun aradan qaldırılması,strategiyaların işlənib hazırlanması üçün çox önəmli beynəlxalq platformadır. Məhz ona görə bu qənaətdəyik ki, COP 29 ölkəmizə iqtisadi cəhətdən də qazanc gətirə biləcək bir platformadır. Düşünürük ki, ölkəmizin ətraf mühitinin,təbiətinin qorunmasına COP 29 müsbət təsir edəcək. Rəssam da, şair də, bəstəkar da öz əsərlərində təbiətin min bir gözəlliyindən bəhs edir. Lakin təbiətin yaratdıqlarını tam təsvir edə bilmirlər. Misal olaraq deyə bilərik ki, adi qanqal çiçəyinin rəng çalarlarını çəkməyə nə rəssam fırçası, nə də şairin qüdrəti çatır. Biz insanlarda dərk etməliyik ki, Allahın yaratdığı bu möcüzələri qorumaq lazımdır. Təbiətin qədrini bilməliyik, körpə fidanlar əkməliyik. Etdiyimiz bu hərəkətlə biz gələcək nəsillərə də örnək olarıq.

**Azərbaycan ekologiyası və kitabxanaların qarşısında duran vəzifələr**



Son əsrlərin ən qlobal ekoloji problemləri Azərbaycandan da yan keçməmişdir. Bunun nəticəsidir ki, Respublikamızda ekoloji problemlərə diqqət xeyli artmış, bu mövzuya həsr olunmuş onlarla qanun, qərarlar qəbul edilmiş, yüzlərlə konfrans, seminar və toplantılar keçirilmişdir. Bu gün ekoloji problemlərin həlli bəşəriyyətin, böyükdən kiçiyə qədər hamının bu işə cəlb olunmasını tələb edir. Heç kimin bu problemdən kənarda qalmağa mənəvi haqqı yoxdur. Milli Məclis tərəfindən qəbul olunmuş və Respublika Prezidentinin təsdiq etdiyi “Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında” (2003), “Ətraf mühitin mühafizəsi haqqında” (1999) Qanunları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 sentyabr 2006-cı il tarixli “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı” haqqında fərmanı məsələnin nə qədər aktual və vacib olduğundan xəbər verir. Dövlət də təbiətdən istifadə məsələsinə nəzarəti gücləndirməyi, əhalinin ekoloji tərbiyəsini diqqət mərkəzində saxlamağı zəruri sayır. Bu məsələnin aktuallığını nəzərə alaraq, kitabxanaların qarşısında çox mühüm vəzifələr durur. Yer kürəsində 270 növ vəhşi heyvan qırılmışdır. Qırılmaq təhlükəsi olan başqa heyvanların siyahısı “Qırmızı kitab”a daxil edilmişdir. Onlar qayğı ilə mühafizə edilir. Lakin qoruqlardan kənarda da insan təbiətə qayğı ilə yanaşmalı, təbii zənginliklərdən – torpaqdan, meşələrdən, balıq, quş və vəhşi heyvan ehtiyatlarından ağılla istifadə etməlidir. Bundan ötrü təbiətin qanunlarını, bütün canlı orqanizmlərin xüsusiyyətlərini dərindən öyrənmək lazımdır. Hər bir kəs bilməlidir ki, biz təbiətlə sıx əlaqədəyik və bizim hər birimiz həm indiki, həm də gələcək hərəkətlərimizə görə cavabdehik. Təbiəti qorumaq, onun sərvətlərini mühafizə etmək hər bir vətəndaşın borcudur.

**Ekoloji biliklərin təbliğinə dair keçiriləcək tədbirlər**

Kitabxanada oxucuları ekologiya haqqında qanunlar və ekologiya hüququ ilə tanış etmək üçün ekoloji qanunvericiliyə nəzarət edən orqanların köməkliyi ilə müxtəlif "Ekologiya hüququ haqqında nə bilirsiniz?", "Ekologiyaya aid qəbul edilmiş qanunları tanıyırsınızmı?" və s. adlarda söhbətlər keçirmək olar. Ekoloji tərbiyə dünya standartlarına uyğun formada icra olunmalı, əhalidə ekoloji şüur, psixologiya, təfəkkür, mədəniyyət, təlim-tərbiyə formalaşdırılmalıdır. Ekoloji tərbiyənin təməli uşaq bağçalarında qoyulmaqla orta məktəblərdə inkişaf etdirilməlidir. Məktəb kitabxanaları ilə birgə məktəbdə və bağçada kiçik yaşlı uşaqları "Təbiəti sevənlər" dərnəyinə cəlb etmək və "Ətraf mühit nədir?" mövzusunda aşağıdakı nümunə əsasında söhbətlər keçirmək olar. Bu söhbətlərdə kiçik yaşlı uşaqlarda ətraf mühit haqqında elementar təsəvvür yaratmaq lazımdır:

- "Uşaqlar, ətraf mühit dedikdə, işıq, hava, su və qida olduğu nəzərdə tutulur. Bunlar olmasa heç bir canlı yaşaya bilməz. Ölkəmiz sürətlə inkişaf edir. Şəhərlərimiz böyüyür. Yeni yaşayış məntəqələri, yollar, körpülər salınır, zavodlar, fabriklər, elektrik stansiyaları tikilir. Unutmaq olmaz ki, bu inkişaf bəzən meşələrin qırılması, otlaqların və çəmənliklərin məhv olması hesabına baş verir. Hər çətinliyin öhdəsindən gələn insanlar bu problemləri də həll edə bilirlər. Zavod və fabriklərin buraxdığı zəhərli qazları zərərsizləşdirən, kanalizasiya sularını təmizləyən qurğular tikməklə, qırılan ağacların əvəzinə yeni ağaclar əkməklə bu işin öhdəsindən asanlıqla gəlirlər".

Uşaqlara kiçik yaşlarından ağacları sevməyi, ağacların insanın yaşayışı üçün nə qədər əhəmiyyətli olduğunu, məktəb və sinif otaqlarının təmizliyinin nə qədər vacib olduğu haqda söhbətlər aparmaqla onlara başa salmaq lazımdır ki, əgər yer üzərindəki hər uşaq beş-altı çiçək, bir-iki kəpənək məhv etsə onların nəsli kəsilə bilər. Ona görə də hər bir məktəbli ekoloq olmalıdır. "Evdə heç nəyi sındırmaq olmadığı kimi təbiətdə də heç nəyi sındırmaq olmaz" fikrini kiçik yaşlarından məktəbliyə öyrətmək lazımdır. Yalnız bu yolla yaşadığımız mühiti sağlamlaşdıra, həyat üçün təhlükəsiz edə bilərik. Ətraf aləmi məhv etsək özümüz də sağ qala bilmərik. Ekoloqlarımız şəxsi evimiz kimi ümumi evimizi – Yer kürəsini təmiz və səliqəli saxlamağı məsləhət görürlər. Kitabxanada oxucuların ekoloji ədəbiyyata olan tələbatını ödəmək məqsədilə mütləq fondların komplektləşməsində Azərbaycan təbiətinə, ekoloji problemlərə aid kitabların toplanmasına fikir vermək lazımdır. Kitabxananın kataloq və kartotekalarında "Azərbaycanın ekologiyası" adlı rubrika açılmalıdı. Ədəbiyyat çoxaldıqca ekologiyanın müxtəlif sahələrinə aid ədəbiyyatı "Ekologiya tarixi", "Ekologiyaya aid qanun, qərarlar və sərəncamlar", "Bioloji müxtəliflik", "Sənaye, tikinti ekologiyası", "Səhralaşma", "Dəniz və axar suların çirklənməsi" və s. adlarda yarımbaşlıqlar açmaq lazımdır. Uşaqların ətraf mühiti qoruması, təbiətə qayğı və məhəbbət ruhunda tərbiyə edilməsi işi hazırda uşaq kitabxanaları qarşısında kəskin bir vəzifə kimi durur. Məktəblilərdə ekoloji tərbiyəni formalaşdırmaq üçün kitabxanalarda müxtəlif kütləvi tədbirlər təşkil etmək ən mühüm işdir. Doğma yurdun təbiətini, onun flora və faunasını qorumaq, yaşıllıq yaratmaq, ağac əkmək və becərmək kimi vərdişlər uşaqlara kiçik yaşdan aşılanmalıdır. Bu məqsədlə uşaq kitabxanalarında təbii sərvətlərin qorunmasına, məhəbbət ruhunda tərbiyə işi aparmaq, bitki

və heyvanat aləminin əhəmiyyətini onlara izah etmək, təbiətə qarşı mərhəmətli və qayğıkeş olmaq hissini aşılamaq lazımdır. Buradan belə bir nəticəyə gəlirik ki, uşaqlar ekoloji anlayışlara və bacarıqlara ilk növbədə ailədə, məktəbdə və kitabxanalarda yiyələnirlər. Bu cəhətdən F. Köçərli adına Respublika Uşaq Kitabxanasında oxucularda doğma təbiətin gözəlliyini, zənginliyini düzgün başa düşmək və qiymətləndirmək bacarığını formalaşdırmaq məqsədilə böyük hazırlıq işləri görülür.

Uşaq kitabxanalarında ekoloji tərbiyə üzrə aşağıdakı vəzifələr nəzərdə tutulmuş və onların həyata keçirilməsi kitabxanaçılara həvalə edilmişdir:

1) təbiət və ekologiyaya aid yazılmış ədəbiyyatın təbliği məqsədilə sərgi və plakatlar təşkil etmək, bu mövzuya aid olan bədii ədəbiyyatın mütaliəsinə oxucularda həvəs yaratmaq;
2) insanların təbiətlə qarşılıqlı əlaqədə olmaları barədə uşaqlara müntəzəm məlumat vermək;
3) müxtəlif kütləvi tədbirlər hazırlamaq (viktorina, diskussiyalar, kitab müzakirəsi. Biblioqrafik icmal, ekskursiya və s.).

Kitabxanalarda uşaqlara tövsiyə edilən ədəbiyyatı əyani surətdə göstərib təbliğ etmək üçün kitab sərgiləri daha yaxşı tədbir formalarından biridir. Kitab sərgisi oxucularda ədəbiyyata maraq oyadır. Sərgidə ətraf mühiti və ekologiyanı özündə əks etdirə bilən kitablar, jurnallar, qəzet materialları yer alır. Sərgilərin təşkilində əsas məqsəd bu mövzuda yazılmış kitabları təbliğ etmək, oxucuları bu kitabların mütaliəsinə həvəsləndirməkdir. Sərginin təşkili zamanı görkəmli şəxsiyyətlərin bu mövzu ilə bağlı söylədiyi fikirlərdən də istifadə etmək olar.



Təbiətə maraq uşaqlarda kiçik yaşlardan başlanır. Ona görə də məktəbəqədər və kiçik yaşlı qrup uşaqlar üçün **ucadan oxu** tədbirini keçirmək məqsədəuyğundur. Ucadan oxu - şeirin məzmununu uşaqlara başa salmaqda kömək edir. Abbas Səhhətin “Quşlar”, Mirmehdi Seyidzadənin “Payız gələndə”, Mirzə Ələkbər Sabirin “Yaz günləri” kitablarının, Nizami Gəncəvinin “İlin fəsilləri”, Davud Ordubadlının “Ana yurdum”, “Sirli təbiət”, Hidayətin “Torpaq”, “Çinar” və s. şeirlərinin ucadan oxusunu keçirmək uşaqlar üçün maraqlı olar.

Məktəbəqədər və kiçik yaşlı oxucular üçün Qəşəm İsabəylinin “Külək” şeirinin ucadan oxusunu keçirmək olar. Şeirin ucadan oxusundan əvvəl kitabxanaçı şeirin məzmunu haqqında danışmalı, məlumat verməlidir. Uşaqlara başa salmaq lazımdır ki, ilimiz 12 aydan, yəni 4 fəsildən ibarətdir. Hər fəslin öz gözəlliyi, öz rəngarəngliyi vardır. Uşaqların ekoloji tərbiyəsində fəsillər üzrə torpaqda, suda və havada baş verən dəyişiklikləri bilmək mühüm əhəmiyyət kəsb edir. Hər fəsildə təbiətdə baş verən hadisələr onların biliyini, təbiət haqqında anlayışlarını zənginləşdirir. Məsələn, onlar öyrənirlər ki, qışda qar yeri tamamilə örtür,

şaxtalar başlayır, quşlar dən axtarır. Bir sıra heyvanlar ayılar, porsuqlar qış yuxusuna gedir. Meşədə bağ və bağçalarda bəzi ağaclar yarpaqlarını tökür, zeytun, şam və küknar ağacları yaşıl qalır.

Yazda təbiət qış yuxusundan ayılır, havalar istiləşir, qar və buzlar əriyir, otlar göyərir, ağaclar çiçək açır. Yazda quşlar yuva qurur, köçəri quşlar isti ölkələrdən geri qayıdır, təbiətdə canlanma əmələ gəlir.

Yayda havalar istiləşir, bəzi meyvələr yetişir, yaşıllıq hər tərəfi bürüyür. Uşaqlar çayda və dənizdə çimməkdən həzz

alırlar. Onlar hiss edirlər ki, günəş, hava, su və torpaq insanların həyatında həlledici əhəmiyyət kəsb edir.

Payızda isə soyuqlar başlayır, tez-tez yağış yağır, külək əsir, yarpaqlar saralıb yerə tökülür. Bağ və bostanda tərəvəz və meyvə yığılır, köçəri quşlar isti ölkələrə uçub gedirlər. Qəşəm İsabəylinin “Külək” şeirində küləyin mənası açıqlanmış, onun fəsillərlə əlaqəsi öz əksini tapmışdır:

– Ay külək nə əsirsən?

– Əsməsəm, olmaram mən.

– Olmağının xeyri var?

– Xeyri var ki, varam mən!

– Qışda nə xeyrin var, hə?

– Qışda yağış, qaram mən.

– Yazda bəs?

– Ağacları oynadan nübaram mən.

– Yayda nəsən ay dəli?

– Yaydamı… baharam mən.

– Payızda bəs?

– Payızda

– Aşıb-daşan varam mən; Bağça dolu xəzələm, Budaq dolu baram mən!

Ucadan oxudan sonra uşaqlara suallarla müraciət olunur:

1.Təbiət deyəndə nə başa düşürsünüz?

2.İldə neçə fəsil vardır və hansılardır?

3.Fəsillər haqqında nə bilirsiniz?

4. İndi ilin hansı fəslidir?

5. İlin fəsillərinə aid hansı şeirləri bilirsiniz?

Və yaxud "Düşünmə mərhələsi" adlı cədvəl tərtib olunur. Uşaqlar qruplara bölünür və onlara tapşırıqlar verilir.




Ümumiyyətlə, uşaqlar qarşısında düşündürücü suallar qoymaq lazımdır. Kiçik yaşlı qrup oxucularda ekoloji tərbiyəni formalaşdırmaq üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasının imkanları daha genişdir. Ekoloji tərbiyənin aparılmasında dövri mətbuat, televiziya və radio böyük əhəmiyyət kəsb edir. Çünki təbiətin mühafizəsinin müxtəlif vəzifələri haqqında televiziya və radio oxuculara geniş məlumat verir. Məhz bu baxımdan kitabxanamızda fəaliyyət göstərən kiçik yaş qrupu üzrə xidmət zalı kiçik yaşlıların zövqünü oxşayır, televizor, audio, video maqnitofonlardan istifadəsini təşkil edir, onların kitabxanaya gəlişini artırır. Oxu zalında oxucular təbiətlə bağlı cizgi filmlərinə, televiziya verilişlərinə baxır, audio kasetlərə qulaq asırlar. Böyük oxu zalından fərqli olaraq, oxucular burada kitab və jurnallardan başqa, müasir tipli kompüter və internetdən istifadə etmək imkanı qazanırlar.

İnternet və disklər vasitəsilə uşaqlar təbiət, bitki və heyvanlar haqqında maraqlı məlumatlarla

tanış olur, biliklərini daha da zənginləşdirirlər. Təbiətin estetik təsirini duymağı bacarmaq üçün insanlarda təbii gözəlliyi müşahidə etmək vərdişləri olmalıdır. Bu məqsədlə uşaqların ekoloji tərbiyəsində kitabxanaçıların bağça

və məktəb müəllimləri ilə birlikdə təbiətə, meşələrə təşkil etdiyi ekskursiyalar mühüm rol oynayır. Ekskursiya müxtəlif yaş qrup oxucular üçün təşkil oluna bilər. Ekskursiya zamanı kitabxanaçı uşaqları təbiətlə yaxından tanış etməlidir. Mavi səma, sıx meşə, yaşıl çəmənlik, göy dəniz – bütün bunlar uşaqların qəlbində dərin iz buraxmışdır. Təbiətlə yaxından təmasda olmaq uşaqların biliklərini artırır, təfəkkürünü genişləndirir. Ekskursiyanın üstün cəhəti burasındadır ki, uşaqlar daim hərəkətdə olur, çayın, meşənin, gölün təmiz saxlanması, çirkab

suların çaya, dənizə, gölə axıdılmasının zərərini anlayır və bu sahədə düzgün mühakimə yürüdə bilirlər. Təbiət uşaqların ekoloji tərbiyəsi üçün əvəzsiz bir xəzinədir, təbiətlə təmasda olmaq uşaqlara böyük zövq verir.

**Tövsiyə ədəbiyyat siyahıları**nı tərtib etmək oxucuların maraqlandığı konkret mövzulara aid ədəbiyyatın daha tez əldə edilməsinə səbəb olar. Ekoloji tərbiyədə bədii söz sənətinin rolu əvəzsizdir. Hər bir insanın mənəviyyatı keçmişinə, kökünə bağlılığı ilə ölçülür. Ta qədimdən odu allah, torpağı müqəddəs saymış babalarımız bulaq gözü açmağı, bağ salmağı xeyirxah iş sayıblar. Bütün bunları böyüməkdə olan nəslin şüuruna çatdırmaq kitabxanaçıların vəzifəsidir. Hələ XX əsrin əvvəllərində Həsən bəy Zərdabi"Bizim nəğmələrimiz" adlı məqaləsində doğma diyarımızın təbiətini daha dərindən öyrənmək, sevmək və qorumaq haqqında qiymətli fikirlər irəli sürmüşdür. Azərbaycan diyarının füsunkar təbiəti, onun ceyranlı, cüyürlü düzləri, başı ərşə dirənən dağları, sonalı gölləri, zümzüməli çayları… Xəzəri, Kəpəzi, Göy gölü, Kürü, Arazı ta qədimdən söz ustalarının ilham mənbəyi olmuşdur. Şair və yazıçılarımız öz əsərlərində təbiətin gözəlliyini böyük məhəbbətlə qələmə almış və bu gözəlliyi dönə-dönə vəsf etmiş, rəssamlar gözəl təbiət təsvirləri yaratmışlar. Təbiətlə, onun qorunması ilə bağlı bir çox xalq deyimləri və inanclar, tapmacalar mövcuddur. Bu deyimlərlə tapmacalarla və inanclarla oxucuları tanış etmək üçün bu mövzuda yazılmış kitabları təbliğ etmək və sərgilərin, plakatların tərtibində bu deyimlərdən istifadə etmək olar.

Kitabxanada (və ya məktəbdə) orta məktəblərin şagirdləri arasında ekologiyaya aid müsabiqələrin keçirilməsindən geniş istifadə etmək olar. Məktəblilərin təbiətə, vəhşi flora və faunaya, eləcə də təbiətin mühafizəsinə həsr olunmuş **rəsm əsərlərinin, plakatların müsabiqəsini keçirməklə** onlarda təbiətə və onun sərvətlərinə qarşı maraq və məhəbbət aşılanmalıdır. (Məsələn: ***"Bu gözəlliklər bizimdir", "Təbii sərvətlərimiz - xoşbəxt gələcəyimiz", "Ekologiya uşaqların gözü ilə"*** və s. adlarda)





 

Xalqımızın ən əziz bayramı olan Novruz bayramı ərəfəsində **“Hərəyə bir ağac əkək” devizli layihə**ni həyata keçirmək ekologiya mövzusunda məqsədəuyğundur. Kitabxanalar da bu aksiyaya qoşularaq məktəblərlə əlaqə saxlayıb, uşaqlara bu layihənin əhəmiyyətini, səhralaşmaya qarşı bir tədbir kimi ağacların əkilməsinin, parklar salınmasının vacibliyi haqda söhbətlər apararaq işin əhəmiyyətini başa salmalıdırlar. Məktəbyanı sahələrdə ağacların əkilməsini və təmizlik işlərinin aparılmasını tövsiyə etməlidirlər. Bu işin islam dinində də təqdir olunduğunu aşağıdakı hədisdə də görürük. Məhəmməd Peyğəmbərin bir hədisində deyilir: yaxın əsabələrinin biri soruşur ki, nə edək ki, savab yükümüz bir az da ağır gəlsin? Peyğəmbər Əleyhissalam cavab verir ki, ömrünüzə bir gün qaldığını bilsəniz də yenə ağac əkin, ən böyük savab ondadır.

Uşaq və gənc oxucular arasında ekologiyaya aid **disput və sual-cavab gecələrinin** keçirilməsi məqsədəuyğundur. Sual-cavab gecələri və viktorinalar oxucuların biliyini zənginləşdirən, əldə etdikləri bilikləri dəqiqləşdirən kütləvi tədbir formasıdır. Bu tədbir formalarını orta yaş qrup oxucuları üçün keçirmək yaxşı olardı. Kitabxanaçı sualları tərtib edərkən uşaqların yaş qruplarını nəzərə alıb, onların təfəkkürlərinin fəallaşmasına səy göstərməlidir. Sual-cavab gəzinti və ekskursiyalardan sonra təşkil olunarsa daha effektli olar. Disputun maraqlı cəhəti orasındadır ki, o, eyni məsələ ətrafında müxtəlif baxışları toqquşdurur, iştirakçıları düşündürür. Disputun hazırlanması və keçirilməsi vaxtı, disputun auditoriyası, hansı oxucu kateqoriyası üçün hazırlandığını müəyyən etmək lazımdır. Disputun müvəffəqiyyəti onun mövzusundan çox asılıdır. Dəqiq, aydın, konkret ad böyük təşkiledici əhəmiyyətə malikdir. Mövzunun adı mübahisə və onda iştirak etmək həvəsi doğurmalıdır. Onun keçirilməsinə oxucu fəallarını cəlb etmək olar. Bura mütəxəssisləri, ictimai təşkilatların nümayəndələrini, yuxarı sinif şagirdlərini və disput hansı oxucu qrupu üçün təşkil edilirsə həmin qrupdan da bir neçə nəfəri daxil etmək məqsədəuyğundur. Aparıcı mövzunu dərindən bilməli, məsələni kəskin və maraqlı qoymağı bacarmaqla, məsələni sübut etməyə qadir olan adam olmalıdır. Mübahisə doğuran məsələlərə aydınlıq gətirmək lazım olduqda suallara cavab verə bilməlidir. Mövzu ətrafında 4-6 sualla kifayətlənmək olar. Bunlar mövzunun əsas məsələlərini əhatə etməli, məntiqi ardıcıllıqla düzülməlidir ki, müzakirə həmin ardıcıllıqla getsin. Disputun suallarını müəyyən etmək aparıcının (kitabxanaçının) vəzifəsidir. Hazırlıq işi mövzunun və onun suallarının müəyyən edilməsi ilə bitmir. O,

(aparıcı) disputa hazırlaşan, onda fəal iştirak edən adamlara kömək göstərməlidir. Təşkilati məsələləri həll etdikdən sonra aparıcı giriş sözü söyləməlidir. Bu zaman müzakirəyə verilmiş mövzunun əhəmiyyəti, əsas suallar, müzakirənin ümumi istiqaməti göstərilməlidir. Giriş sözündə müzakirə edilən problem haqqında mübahisəli fikirlər olduğunu söyləmək, oxucuları mövzu ətrafında və onun sualları ətrafında çıxış etməyə, öz münasibətlərini bildirməyə çağırmaq lazımdır. Aparıcı son sözü ilə disputa yekun vurur.

Məsələn, "Səhralaşma - dünyanın qlobal problemi" adlı disputun suallarını veririk: 1.Səhralaşma dedikdə nə başa düşürsünüz?

2. Səhralaşmanı yaradan amillər hansılardır?
3. Yaşıllıqların salınmasının əhəmiyyəti nədir?
4. Azərbaycan ərazisində səhralaşmanın iqlim amillərinə necə təsir göstərir?
5. Ermənilərin törətdikləri yanğınların səhralaşmada rolu.
6. "Hərəmiz bir ağac əkək" layihəsinin rəhbəri kimdir?

Müxtəlif məsələləri izah etməkdə **sual-cavab gecələri**nin rolu əvəzsizdir. Belə sual-cavab gecələri bir mövzulu (müəyyən bilik sahəsinə aid) və çoxmövzulu olurlar. Gecənin xarakterini müəyyən edib, tədbirin nə vaxt keçiriləcəyi yer və vaxt barədə elan asılır. Suallar toplandıqdan sonra onlar qruplaşdırılır və müyəyyən edilir ki, hansı sahənin mütəxəssislərini dəvət etmək lazımdır. Gecənin təşkilində köməkçi əyani illüstrasiya materiallarından, sərgi və fotomaterialları və bu məsələlərin geniş izahı verilmiş ədəbiyyatı oxuculara tövsiyə etmək, video çəkilişlərdən, sənədli filmlərdən və internet səhifələrində olan məlumatlardan istifadə etmək yaxşı olardı. Sual-cavab gecəsi ona yekun vurulması ilə başa çatır və gecədə iştirak edənlərin cavablarının onları nə dərəcədə qane etdiyi, gələn gecənin hansı mövzuya həsr etmək lazım gəldiyini nəzərə almaları zərurətini bildirmələri vacibdir. Məktəblilər həyatda günəşin, torpağın, suyun, havanın rolunu dərk edərək onu sevməlidirlər. Bilməlidirlər ki, bu dörd ünsürdən biri olmasa həyat olmaz.

Aşağıda ekologiyaya aid bir sual-cavab gecəsinin nümunəsini veririk:

1. Ekologiya elmi nəyi öyrədir?
2. Ətraf mühit dedikdə nə başa düşürsünüz?
3. İqlim dəyişmələri nə kimi problemlər yaradır?
4. Ekoloji hüquq nədir?
5. "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında"Azərbaycan Respublikasının Qanunu nə vaxt qəbul olunub?
6. Azərbaycanda hansı qoruqlar var?
7. Xüsusi qorunan ərazilər hansılardır?

8. “Qırmızı kitab” nə üçün yaradılıb? Niyə bu kitaba “Qırmızı kitab” deyirlər?
9. “Qırmızı kitab”a daxil olmuş və xüsusi mühafizə olunan bitki və heyvan növlərindən hansını tanıyırsınız?
10. Çernobıl hadisələri nə vaxt baş verib və onun fəsadları?

Kitabxanalarda və məktəblərdə **fərdi ekoloji guşələr və stendlər** yaradılmalı və təbiətin qorunmasını geniş təbliğ edən, vaxtaşırı təsiredici devizlərlə **seminarlar, konfrans, müşavirələr** keçirilməlidir. Bu işə yazıçı, şair və rəssamları da qoşmaq olar. Ekoloji poemaların, dram və

nəsr əsərlərinin nümayiş etdirilməsi, vaxtaşırı sərgi və müsabiqələrin keçirilməsi artıq günün tələbidir.

Bundan əlavə kitabxanalarda yeni daxil olmuş ədəbiyyatın **baxış-sərgisi**ni təşkil etmək məqsədəuyğundur. Mövzunu daha aydın anlatmaq, mühüm məqsədləri nəzərə daha tez çarpdırmaq üçün **sərgilər, illüstrasiyalar və mətnlər**lə müşayiət olunur. Hər hansı bir kitab sərgisi aşağıdakı qaydada tərtib edilir. Sərgi ümumi başlıq və yarımbaşlıq, tövsiyə olunan ədəbiyyat, sitat və şəkildən ibarət ola bilər. Ümumi başlıq sərginin mövzusunu müəyyən edir və onun əsas məzmununu aydınlaşdırır. Kitabxanaçılar sərgilərə ad seçərkən onun rəngarəng və çağırış ruhlu olmasına xüsusi fikir verməlidirlər. Bu başlıq qısa və aydın olmalıdır. Sərginin hazırlanmasında fəal oxucuların köməyindən istifadə etmək olar. Aşağıda “Ekologiya bu gün” adlı sərginin nümunəsini veririk:

Başlıq: “Ekologiya bu gün”

1. Münasib şəkil
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 sentyabr 2006-cı il tarixli “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Fərmanı

Kitabxanalarda ***“Azərbaycan təbiəti şairlərin gözü ilə”, “Rəssamların yaradıcılığında təbiət”, “Nizami Gəncəvi yaradıcılığında təbiət”, “Azərbaycan təbiəti bədii ədəbiyyatda”*** və s. mövzularda müxtəlif adlarda tədbirlər keçirmək olar. Belə tədbirlərdən biri **ədəbi-bədii gecələr**dir. Hər bir ədəbi-bədii gecənin əsasını məruzə təşkil edir ki, ədəbi kompazisiya və səhnələşdirmə ilə tamamlanır. Gecənin mövzusuna uyğun ədəbiyyat sərgisi, viktorina, ədəbi oyunlar hazırlanır. Ədəbi-bədii gecələrə yazıçı və şairlər dəvət oluna bilər. Vətənimizin füsunkar gözəlliyinə həsr edilmiş şeirlər yuxarı sinif şagirdləri tərəfindən ifa edilərsə, tədbir daha da maraqlı olar. Belə gecələrdə klubun bədii özfəaliyyət dərnəyinin üzvlərinin çıxışı, kiçik səhnəciklər, səhərciklər və konsert proqramlarının hazırlanması da məqsədəuyğun olar. Təbii ki, bütün çıxışların məqsədi diyarımızın təbii gözəlliklərinə, təbiətin bizə verdiyi nemətlərə və onların mühafizə edilib qorunmasına həsr olunmalıdır. Yaz, yay aylarında belə tədbirləri təbiətin qoynunda keçirtmək, daha çox iştirakçı toplamağa səbəb olar. Təbiətin,

ekologiyanın təbliği üçün uşaq kitabxanalarında ədəbi-bədii gecələrin keçirilməsi daha vacibdir.

**Ekologiya Ssenari**

(Tədbirdən öncə çıxışlar olur. Çıxışlardan sonra ekranda slayd-1 nümayiş olunur.)

**I aparıcı:** Salam, əziz qonaqlar, əziz uşaqlar! Hamınızı kitabxanamızın hazırladığı ekologiya mövzusuna həsr olunmuş tədbirimizdə xoş gördük.

**II aparıcı:** Biz öz təbiətimizin sahibiyik. O bizim üçün günəş kimi tükənməz mənbə və təmiz həyat xəzinəsidir. Bu xəzinəni bir sirr kimi açmaqla iş bitmir, ona sahib çıxmaq və onu qorumaq lazımdır. Balıqlara təmiz su, quşa səma, heyvanlara meşə, dağ, dərə, çöl gərəkdir. İnsana isə vətən lazımdır. Təbiəti qorumaq isə elə vətəni qorumaq deməkdir.

**I aparıcı:** Vətənimiz Azərbaycan gözəl təbiətli bir ölkədir. Ulu yaradan vətənimizdən heç nəyi əskik etməmişdir.

Dağlarımın bəyaz qarı,

Düzlərimin ilk baharı,

Bağ-bağatın şirin barı

Azərbaycan təbiəti.

**II aparıcı:** Turacları gözdən itər,

Ceyran olub düzdən ötər,

Sərt qayada gül bitirər,

Azərbaycan təbiəti.

**I aparıcı:** Öz ürəyim, öz canımdır,

Sevinc dolu ümmanımdır,

Təbiətim, dərmanımdır

Azərbaycan təbiəti.

**II aparıcı:** Qobustanın qayasıdır,

Göygölümün boyasıdır,

Şeir, sənət dünyasıdır

Azərbaycan təbiəti.

**I aparıcı:** Hamımız bilirik ki, yer kürəsi bir neçə milyard ildir ki, mövcuddur. Təxminən iki milyon il bundan qabaq isə insan yaranmışdır. Bəs heç düşünmüsünüzmü ki, planetimiz necə olur ki, insanla birlikdə yaşaya bilir? İnsanların normal yaşaması üçün təbiət heç nəyi əsirgəməmişdir. Bəs insanlar necə təbiəti lazımi qədər qoruya bilirlərmi? Çox təəssüf ki, insanların təbiətə olan münasibətləri eyni deyil. Bir çox insan təbiəti sevib onu qorumağa çalışdığı halda, bir çoxları ona ziyan vurur.

*(Elə bu vaxt səhnəyə 10-12 yaşlarında iki oğlan daxil olur. Onların hər ikisinin əlində sapand var. Oğlanların dəcəl uşaq olduqları geyimlərindən və səhnədə yerişlərindən bəlli olur. Aparıcı sözünü kəsir və onlara baxmağa başlayır.)*

**Nazim:** Gözlə, mən elə indicə o sərçə balasını vuracağam. Ay, yenə də alınmadı. O uçub getdi.

**Orxan:** Bacarıqsızın biri! Sənin ucbatından oyunumuz da maraqsız keçir. Axı mən sənə dünən də dedim ki, bu sapandla bir dənə də olsun quş vura bilməyəcəksən.

Gəl sən sapandı bu ağacın budağından düzəlt. Onda görərsən ki, sərçə nədi yeee… lap durna vurarsan.

(O, əlini yaxınlıqdakı ağaca atıb budağını qoparmaq istədiyi vaxt aparıcı müdaxilə edir.)

**II aparıcı:** Ay oğlan, dayan görək. Nə edirsən?

Orxan: Necə yəni nə edirsən? Özümüzə təzə sapand düzəltmək istəyirik. Buna görə də ağac budağı lazımdır. Mən də bu ağacın budağını qıracağam. Ağacdı da, necə olsa yenə təzə budaqları çıxacaq.

**I aparıcı:** Uşaqlar, axı belə olmaz. Bu sizin kimi uşaqlara yaraşan hərəkət deyil. Yəqin siz ağacların, quşların, heyvanların insana verdikləri faydadan onların xeyirlərindən xəbərdar deyilsiniz. Bəxtiniz gətirdi ki, bizim balaca dostlarımız bu mövzu ilə əlaqədar kiçik bir səhnəcik hazırlayıblar. Sizi də qonaqlarımızla birlikdə həmin səhnəciyə baxmağa dəvət edirik. Əminəm ki, həmin səhnəciyə baxandan sonra tutduğunuz işdən peşman olacaqsınız.

(Aparıcılar və uşaqlar səhnəni tərk edirlər. Səhnədə bir ağac görünür. Onunsa yanındakı təpədə bir qartal oturub. Elə bu vaxt canavar qaçaraq oradan keçir.)

**Qartal:** Ay qurd, hara tələsirsən?

**Qurd:** Dovşanı qovalayıram. Axı nahar etmək lazımdır. Qaçmasam ac qalaram.

**Qartal:** Bəli, bu həqiqətən də belədir. Biz də uçmasaq ac qalarıq. Mən də bu ağac kimi beləcə bir yerdə rahatca oturmaq, hazırca yemək istərdim.

**Qurd:** Ancaq unutma ki, biz vaxtımızı belə keçirsək acından ölərik.

**Ağac:** Mənsə məhv olmaram. Çünki mən öz qidamı birbaşa torpaqdan alıram. Beləcə də harasa qaçmalı və yem axtarmalı olmuram. Mən hətta başqalarını da nahara dəvət edirəm.

Quşlar uçub gəlib mənim meyvələrimə qonaq olurlar. Hətta ceyran, cüyür, maral da mənim yarpaqlarımla qidalanır.

**Qartal:** O ki qaldı bizə, biz bitki ilə qidalanmırıq. Sizin işiniz-gücünüz rahatca oturmaq, hazır yemək yeməkdir.

**Qurd:** Rahatca oturmaq, bizlik deyil. Bizi qidaya ayaqlarımız çatdırır. Özümüzü təriflэmək olmasın, ancaq biz canavarlar yaman qoçağıq.

**Qartal:** Sənin dediklərin də düzdür qoçaq, amma bizi də yaddan çıxarma. Bizim də bu qanadlarımız olmasa ac qalarıq. Odur ki, biz qartallar da siz canavarlardan heç geri qalmarıq. Sizsə, ay ağac, siz ancaq biz quşların uçmağına mane olursunuz. Dünən yağlı bir siçovulun dalınca düşmüşdüm. Ovu caynaqlarıma keçirməyimə azca qalmışdı ki, birdən sənin budaqlarına dəyib müvazinətimi itirdim, ovum da əlimdən çıxdı. Üstəlik saç düzümüm də korlandı.

**Qurd:** Yaxşı, ay qartal, bəsdir şikayətləndin. İmkan ver ağaca bir sual verim. Bəs siz ağaclar illərlə bir yerdə durmaqdan bezmirsiniz?

**Ağac:** Bəzən darıxıram, hətta qorxduğum vaxtlar da olur. Ancaq siz başa düşmürsünüz ki, biz bitkilər olmasaq siz acından ölərsiniz.

**Qurd:** Biz qidanı ayaqlarımızın…

(Ağac Qurdun sözünü kəsir).

**Ağac:** …köməyi ilə əldə edirsiniz. Amma bu belə deyilir. Əslində isə sizi qidalandıran biz bitkilərik. İlk əvvəl biz torpaqdan qida alırıq. Daha sonra maral, ceyran, cüyür, qoyun biz bitkilərlə qidalanır. Bundan sonra siz canavarlar və digər vəhşi heyvanlar dovşanı, ceyranı tutub ləzzətlə yeyirsiniz. Dostlar bu təbiət belə qurulub, bəzi heyvanlar, quşlar bitkilərlə qidalanır, digərləri də onlarla.

**Qartal:** Deməli bu səbəbdən siz bitkilər bir yerdə bitirsiniz, axı siz hamımızın uçanların, qaçanların, yəni bütün canlıların yaşamasına kömək edirsiniz. Çünki siz hamımızın əvəzinə ayaq üstdə durmalısınız. Hələ havanı oksigenlə zənginləşdirməyinizdən danışmıram. Yəqin özünüzü əsl qəhrəman kimi hiss edirsiniz.

**Ağac:** Hamının yaşamasına kömək etmək əlbəttə ki, qəhrəmanlıqdır. Ancaq üzərimizə düşən işin məsuliyyəti olduqca böyükdür.

**Qurd:** Məncə, bəzən özünüzün həyatda qalmağınız uğrunda apardığınız mübarizə də sizi əsl qəhrəmana çevirir. Axı bəzi məktəblilər sizin qol-budağınızı qırır, gövdənizi mismarla cızırlar. Bu əsl biabırçılıqdır.

**Ağac:** Ancaq onların hamısı belə deyil. Bax ətrafa gör nə qədər mehriban simalı insan var. Bu insanlar yaxşı bilirlər ki, biz bitkilər olmasaq, yer üzərindəki həyat məhv olar. Odur ki, mən bütün bu uşaqlara və qonaqlara Məmməd Arazın “Ağac ək” adlı şeiri ilə müraciət edirəm:

Ömründə bir ağac əkmisənmi? Ağac əkmisənmi?

Ola palıd ağacı o, Ola həmişəyaşıl Zeytun ağacı ola.

Ola narbənd ağacı, ola. Ola sərv ağacı

Ola ardıc ağacı

Ağac ək, əllərə baxanda Əllərin utanmasın.

Haqq-ədalət ağacı Ək həqiqət ağacı, Ola insan ağacı,

Ola loğman ağacı, Ola vicdan ağacı.

Qoru bu yolla - yeri göydən Göyü yerdən,

Qoru, göydən Yeri.

(*Onlar səhnəni tərk etdilər. Aparıcılar səhnəyə daxil olur.)*

**I aparıcı:** Uşaqlar, yəqin hamınız quşları sevirsiniz. Bəs onlar haqqında kifayət qədər məlumatınız varmı?

**II aparıcı:** Əlbəttə ki, balaca dostlarımız çox ağıllıdır.

**I aparıcı:** Onda de görüm, dünyadakı ən balaca quş hansı quşdur?

**II aparıcı:** Bunu bilməyə nə var ki, həmin quş kolibridir. Sözsüz ki, bura yığışan dostlarımız da bunu bilir. Yaxşı, daha bəsdir bizi imtahana çəkdin. İndi isə gəl uşaqlarla birlikdə növbəti səhnəciyimizə baxaq.

*(Uşaqlar səhnəyə haqqında şeir ifa edəcəkləri quşların paltarında çıxır. Ekranda slayd –* **2** *nümayiş olunur.)*

**Göyərçin :** Ay quşlar, deyə bilərsinizmi ki, biz bura niyə yığışmışıq?

**Sığırçın:** Bu gözəl uşaqları görmürsən məgər? Biz bu gün onlarla görüşə gəlmişik.

**Şanapipik:** Dostlar, hamımız bilirik ki, insanlar bizi vəsf edən gözəl şeirlər yazıblar. Siz haqqınızda yazılmış şeirlər bilirsinizmi? Kim bilirsə çıxsın önə.

**Göyərçin:** Elə biri mən. Gəlin sizə özüm haqqında yazılmış bir şeir deyim:

Çöl quşudur göyərçin,

Əhli göyərçin də var.

Nə tapsa – darı, mərci,

Dənləyib yaşayırlar.

Qara, sarı, ağca var.

Göy, zolaq-zolağı var.

Gah uçur dəstə-dəstə,

Gah qonurlar dam üstə.

**Bülbül:** Çox gözəl şeir idi, amma mənim üçün yazılmış şeirə çata bilməz:

Bu sarı bülbüldür, bu da boz bülbül,

Sevdiyi çəməndir, çiçək, qızılgül.

Şirin cəh-cəhi var, nəğməli quşdur,

Bülbülə çox mahnı, söz qoşulmuşdur,

Yay gecələrində səhərə qədər

Nəğməsiylə dolur çöllər, çəmənlər.

Nəğməli bülbül də köçəri quşdur,

Sevmədiyi fəsil, boranlı qışdır.

Bu quşlar çox sevir gülü, baharı,

Çiçəkli çölləri, yaşıl bağları.

**Şanapipik:** Doğrudan da gözəl şeir idi. Ancaq mənim üçün yazılan şeir də sənin şeirindən heç geri qalmaz:

Şanapipik, şanapipik!

Ala-bəzək, qara kirpik.

Üst-başı zolaq-zolaq,

Balaca boy, nazik ayaq.

Daraq kimi pipiyi var,

Gah cüt olur, gah tək olur,

Onu gendən görmək olur.

**Sığırçın:** Mənim haqqımda yazılmış şeirlər də çoxdur. Gəlin onlardan birini sizin üçün söyləyim:

Sığırçındır bu quşlar,

Göydə qanad açmışlar.

Bu çil-çilli sığırçın

Faydalıdır insançın.

Ancaq  çəyirtkələrə

Onlar yaman düşmandır.

Bax dimdikləri qandır.

Hərəsi çəyirtkədən

Öldürmüşdür nə qədər!..

İndi bu duru göldə

Həvəslə çimişirlər.

**Sığırçın:** Ay qaranquş, axı sən bütün quşlardan əvvəl gəlib baharın gəlişilə insanları müjdələyirsən. Odur ki, onlar səni çox sevirlər. Yəqin sənin haqqında yazılan şeirlər də çoxdur. Zəhmət olmasa birini bizim üçün söylə.

**Qaranquş:** Böyük məmnuniyyətlə:

Haçaquyruq qaranquş

Eyvanda yuva qurmuş.

Sinəsi bütün ağdır,

Yayda bizə qonaqdır.

Qışda çıxır səfərə:

Uzaq isti ellərə.

Çör-çöpdən yuva qurur,

Üstünə suvaq vurur.

**Bildirçin:** Dostlar, mənim haqqımda yazılmış şeirlər də az deyil. Qoyun, onlardan birini deyim:

Bu xırda quş – bildirçin.

Başlayan zaman biçin

Dolanır tarlaları,

Görsün harda var darı.

Pırhapır qanadlanır

Bu kiçik tarla quşu,

Çox itidir uçuşu.

**Sığırçın:** Dostlar, söylədiyimiz şeirlər yəqin ki, balaca yoldaşlarımızın da xoşuna gəldi. Ancaq biz quşların sizlərdən bir xahişi var. Quşları gördüyünüz zaman onları incitməyin, daşlamayın. Biz quşlar təbiətin ayrılmaz tərkib hissəsiyik. Qida zəncirində də mühüm yer tuturuq. Bizlər, bitkilərə ziyan vuran həşəratları yeyir, ağacların bir-birilə tozlanmasına bununla da məhsuldarlığın artmasına kömək edirik. Hər birimizin insanlara xeyirimiz böyükdür. Bizi sevin və qoruyun.

*(Quşlar səhnəni tərk edirlər.)*

I **aparıcı:** Əziz uşaqlar, hörmətli qonaqlar, ümid edirəm səhnəciyimiz ürəyinizcə oldu. İndi isə növbə bizim sizlər üçün hazırladığımız xüsusi müsahibəyə gəlib çatdı. Biz üç ayrılmaz dostu səhnəyə dəvət edirik. Onu da qeyd edim ki, siz bu dostları yaxşı tanıyırsınız amma onlar haqqında bilmədikləriniz də çoxdur.

*(Üç dost çirkli, hisli paltarlarda səhnəyə çıxır. Onların əlində plakatlar var: Tüstü, his və toz! **Ətraf-mühiti çirkləndirmək cinayət deyil!** Aparıcılar diksinərək geri çəkilir.)*

I **aparıcı:** Deməli, çirkli üçlük sizsiniz.

**Tüstü:** Bəli, gəlin tanış olaq. Mən tüstüyəm. Bu hisdir, bu isə mənim sevimli dostum tozdur.

**I aparıcı:** Uşaqlar, deməli, bizim nəfəs aldığımız havanı çirkləndirən sizlərsiniz. Buna necə nail olduğunu bizə başa sala bilərsinizmi?

**Toz:** Biz toz zərrəcikləri inşaat vaxtı, yeraltı sərvətlərin çıxarıldığı zaman, həm də əkin zamanı torpaq şumlanarkən havaya qalxırıq. (O əlindəki ağ tozu havaya səpələyir.) Bizim sayəmizdə insanlar bir çox xəstəliklərə yoluxur ki, bu da bizləri yamanca əyləndirir.

**His:** Elə ki, gördünüz haradasa nəsə yanır, deməli, mən də oradayam. Benzin, neft, adicə odun yandığı zaman mən peyda oluram. Lakin bizim çoxalmağımızda, əsasən, zavodların, elektrostansiyaların rolu daha da çoxdur. Zavodlardan qalxan his insan orqanizminə nə qədər zərərdir onu bilirsinizmi? O əhatədə olan evlər, uşaq bağçaları, məktəblər hisdən yararsız hala düşmürmü?

**Tüstü:** İmkan verin, mən də danışım. Mən avtomobillərin hərəkəti, zavodların fəaliyyəti zamanı havaya qarışıram. Ən çox sevdiyim məşğuliyyət insanların ciyərlərinə dolub onların nəfəs almalarını çətinləşdirməkdir. Onların gözlərinizi yaşartmaqdan, onları yandırmaqdan, boğazlarını qıcıqlandırmaqdan ləzzət alıram.

**His:** Bəsdir, özünü öydün, tüstü gəl gedək, hələ görəsi çox işimiz var.

*(Onların üçü də uçub gedir.)*

I **aparıcı:** Hələ bu harasıdır! İndi isə kükürd-

dioksidi sizə təqdim edirik. *(Kükürd- dioksid səhnəyə çıxır. Aparıcılar o dəqiqə burunlarını tutur və geri çəkilir).* Əminəm ki, sizin nəfəs aldığımız havaya necə qarışdığınız hamı üçün çox maraqlıdır. Danışın uşaqlar da eşitsin.

**K.d:** Ay qoçaq, siz məgər qəzet, jurnal oxumursunuz? Axı hər həftə, hər ay qəzetlərdə, jurnallarda mənim haqqımda məqalələr dərc olunur. Mən elektrostansiyaların borularında peyda oluram. Elekrtik enerjisi almaq üçün kömür yandırıldığı zaman belə qarşınızda məni görürsünüz.

**I aparıcı:** Siz insanlara hansı ziyanları vurursunuz?

**K. d:** Ooooo pislik etmək, ziyan vurmaq mənim sevimli işimdir. Hətta ağaclar da mənim ucbatımdan inkişafdan qalır. Ancaq havada damcılara qarışaraq, turşuya çevrilərək insanların üstünə, yerə yağmağı daha çox sevirəm. *(O ətrafa su səpələyir.)*

**I aparıcı:** Turş yağışlar, olduqca ciddi problemdir.

Bu yağışlar bitkiləri inkişafdan saxlayır, onları məhv edir. Bundan əlavə turşulu yağışlar metalları karroziyaya uğradır və binalara dağıdıcı təsir göstərir.

**K.d:** Elədir ki, var. Yaxşı, mən tələsirəm. Hələ görüləsi işim çoxdur.

**II aparıcı:** Ümid edirəm ki, tezliklə canımızı sizdən

qurtararıq.

**K.d:** Siz mənimlə çətin bacararsınız.*(Uçur.)*

**I aparıcı:** Nə deyə biləçrəm ki! Bu havanı

çirkləndirən dostlar olduqca güclüdürlər. İnsanlar onları yaradıb, insanlar da onların öhdəsindən gəlməlidir. Gözləməksə olmaz, çünki o zaman gec ola bilər.

**II aparıcı:** İndi isə əziz uşaqlar gəlin sizinlə kiçik bir oyun keçirək. Tədbirdən öncə sizə payladığımız kartların üzərində heyvan, gül və ağac şəkilləri var. İndi biz bu şüşə qabdan heyvanların, ağacın, və ya gülün adı yazılmış kağızlar çıxaracağıq. Kimin kartında həmin heyvanın şəkli varsa, ona kitabxanamız tərəfindən hədiyyə veriləcək.

**I aparıcı**: Dostlar, kitabxanamıza qəribə bir məktub gəlib.

**II aparıcı:** Kimdəndir? Oxu görək üstündə nə yazılıb!

**I aparıcı:** Bağlardan-bağçalardan, güllərdən - çiçəklərdən, ağaclardan-yarpaqlardan dəcəl uşaqlara.

**II aparıcı:** Çox maraqlıdır. *(O, məktubu alır və açır.)*

Qəribədir, məktub şeirlə yazılıb. Oxuyum, siz də qulaq asın:

*(Aparıcı Mirmehdi Seyidzadənin şeirini oxunmağa başlandığı zaman ekranda slayd-**3** nümayiş olunur.)*

Şikayət edir Bağçalar-bağlar:

"Bizi incidir Dəcəl uşaqlar.

Harda gül görsə Dəcəllər dərir,

Yaşıl bağlara Çox zərər verir.

Nadinclər gəzir. Yaşıl bağları,

Qırır-sındırır.Göy budaqları".

Göy yarpaq açmış Körpə budaqlar

Deyir: - " Qırmayın Bizi, uşaqlar!

Boy atıb yayda Dirçəlirik biz,

Könül oxşayır Yaşıl kölgəmiz.

Bağda gəzməyin Bir qaydası var:

Ağac qırmasın Gərək uşaqlar.

Bu dəcəllikdən, Gəlin, əl çəkin,

Bacardıqca siz Gül-çiçək əkin.

Bol ağac əksə Uşaqlar əgər,

Bağ kimi olar Hər kənd, hər şəhər".

**I aparıcı:** Belə bir məktubdan sonra heç rəvadırmı ki, ağacların budağını qıraq, çiçəkləri qoparaq. Axı ağaclar, güllər, təkcə öz gözəllikləri ilə insanlara zövq vermir, eyni zamanda onların bir çoxu, neçə-neçə xəstəliyin dərmanı, təmiz hava mənbəyidir. Odur ki, hamımız bitkiləri sevməli, onları qorumalıyıq.

**II aparıcı:** Bizlərdən birimiz xəstələndiyimiz zaman həkimə müraciət edirik. Bəs heç düşünmüsünüzmü ki, təbiətin köməyə ehtiyacı olduğu zaman ona kim kömək əlini uzadır? Biz əsrlərdir ki, təbiətin bizə verdiyi hazır məhsulları mənimsəyirik. Nə vaxtsa bizim həyatımız təbiətdən asılı idisə, indi insan təbiətin taleyini həll edir. Növbəti səhnəciyimiz məhz bu mövzuya həsr olunub.

*(Kəndli səhnəyə daxil olur. Arxada ekranda video slayd –* ***4*** *nümayiş olunur.)*

**Kəndli:** Salam uşaqlar, yaman yorulub əldən düşmüşəm. Adam nə qədər əziyyət çəkər. Bu qədər vəsait ayırmışam, toxum almışam, onu min bir əziyyətlə əkmişəm suvarmışam. Gəl gör ki, heç bir nəticə yoxdur. Bu torpaq yaman tənbəlləşib. Bir dənə də olsun toxum cücərtmir. Gəlin birlikdə torpağı səhnəyə çağıraq, görək bu nə məsələdir.

*(Uşaqlar kəndli ilə birlikdə torpağı səsləyir. Torpaq səhnəyə çıxır. Onun əynində tozlu, neftli bir paltar var.)*

**Torpaq:** Bu nə səs-küydür. Nə olub ay kişi?

**Kəndli:** Sən bir de görək nə üçün mənim bu qədər əziyyətimi, pulumu heç edirsən? Nə əkirəmsə, onu cücərtmirsən.

**Torpaq:** Ay kişi, məndən niyə bu qədər şikayət edirsən? Mən əlimdən gələni əsirgəmirəm. Ancaq tərkibimdə olan bu zəhərli maddələr, neft, mazut, qarışıq dərman və gübrələr *(o əynindəki çirkli paltarları göstərir.)* mənim toxumu cücərtməyimə mane olur. Bir də axı günəş mənə olduqca az xeyirli şüa göndərir. Göndərdiyi zərərli şüalar isə cücərtdiklərimi də yandırıb tökür. Buludsa yaman xəsislik edir. Üzərimə yaman az yağış yağdırır. Yağan yağış da məni ancaq çirkli suyu ilə zəhərləyir.

*(Ondan söhbət getdiyini duyan bulud səhnəyə çıxır.)*

**Bulud:** Məndə heç bir günah yoxdur. Dənizlərdən, göllərdən mənə kifayət qədər su buxarlanmır. Bunun səbəbkarı da günəşdir. O, tənbəllik edir, öz işinin öhdəsindən gələ bilmir. Gəlin bunun səbəbini onun özündən soruşaq. Uşaqlar gəlin birlikdə günəşi çağıraq.

*(Kəndli, bulud, torpaq uşaqlarla birlikdə günəşi səsləyir. Günəş öz adını eşidər-eşitməz buludların arxasından boylanır.)*

**Günəş:** Mən adımı eşidirəm. Səhv etmirəmsə məndən şikayətlənirsiniz. Ancaq xəbəriniz olsun ki, öz şüalarımı nə qədər yerə əvvəlki kimi göndərməyə çalışsam da bu mümkün olmur. Buna səbəb ultrabənövşəyi şüaların qarşısını alan ozon qatının zədələnməsidir. Hər gün zavodlardan, fabriklərdən havaya buraxılan zərərli qazlar ozon qatının məhvinə səbəb olmuşdur. Buxarlanmaya gəldikdə isə nə qədər çalışıramsa, nəticə heç də yaxşı olmur. Bəlkə də, günah dənizin özündədir.

*(Elə bu vaxt dənizin ləpələrinin səsi eşidilir və dəniz səhnəyə çıxır.)*

**Dəniz:** Mən nə edə bilərəm ki, bu işdə mənim heç bir günahım yoxdur. İnsanların axıtdığı tullantı, neft və digər çirkab suları dənizə tökülür. Bu da kifayət deyilmiş kimi məişət tullantıları, zavod və fabriklərin zəhərli maddələrlə çirkləndirilmiş çaylar axaraq mənim sularıma qarışır. Axıdılan maddələrdən üzərimdə yaranan qat mənim sularımın buxarlanmasına mane olur. Həm də nadir dəniz heyvanları, adı "Qırmızı kitab"a düşmüş, qiymətli balıqlar öz gözəlliyi ilə adamı heyran edən balaca meduzalar çirklənmiş, zəhərlənmiş sudan məhv olurlar.

*(Nə özünün, nə dənizin, nə torpaq və buludun günahkar olmadığını görən günəş üzünü kəndliyə tutur.)*

**Günəş:** Ey insan, sən nə üçün günahı başqalarında axtarırsan? Axı bütün bu bitkiləri, heyvanları məhv edərək, suyu havanı çirkləndirən, təbiəti məhv edən siz insanlar deyilsinizmi? Siz təbiətlə ətraf-mühitlə bu cür kobud rəftarınız təkcə təbiətə deyil, sizin özünüzə, övladlarınıza da böyük ziyan vurur. Ona görə də, ey insanlar, yaşınızdan asılı olmayaraq, hər biriniz təbiəti sevməli, onun qayğısına qalmalısınız.

*(Səhnəcikdən sonra "Kəndimiz" mahnısı səslənir. )*

**I aparıcı:** Hörmətli qonaqlar, əziz uşaqlar, indi səhnəyə meşə kralı şiri dəvət edirik.

**Şir:** Salam uşaqlar, hamınızı xoş gördük. Mən sizinlə kiçik bir oyun keçirmək istəyirəm. Belə ki, mən sizə bəzi canlıların əlamətlərini deyəcəyəm. Kim daha çox suala düzgün cavab versə, onu mükafatlandıracağam və qalib elan edəcəyəm.

*(Şirin əlində bir qutu var. Sualların cavabı onun içinədir. Suallara düzgün cavab verdikcə şir şəkilləri qutudan çıxarır.)*

**Sual:** Ən böyük yumurta bu quşa məxsusdur. Bu quşlar hətta hərəkətdə olan avtomobili də qaçaraq izləyə bilir. Həmin quş hansı quşdur?

**Cavab:** Dəvəquşu.

**Sual:** O hansı canlıdır ki, onun gözləri 360 dərəcə fırlanır?

**Cavab:** Buqələmun.

**Sual:** Bu yırtıcı heyvanlar Avstraliyanın Darvin şəhərində çoxaldıldığı üçün sərbəstcə küçələrdə gəzirlər. Bu sürünənlər 700 gün ac qala bilir. Həmin heyvan hansı heyvandır?

**Cavab:** Timsah.

**II aparıcı:** Əziz uşaqlar, yəqin ki, oyunumuz xoşunuza gəldi. İndi sizə belə bir sual verim, sevimli şairimiz M. Ələkbər Sabirin "Ağacların bəhsi" şeirini oxumusunuzmu? *(Uşaqlar "bəli" cavabını verir.)* Gəlin həmin şeiri yadımıza salaq:

Alma, palıd, şam ağacı hal ilə

Eylədilər bəhsi bu minval ilə...

Görürəm ki, hamınız bu şeiri əzbər bilirsiniz. Əziz uşaqlar, bu şeirin qəhrəmanları sizinlə görüşə gəliblər. Gəlin onları səhnəyə dəvət edək.

*(Alma, palıd, şam ağacı səhnəyə daxil olur. Arxada ekranda slayd - **5** nümayiş olunur. )*

**Alma:** Salam uşaqlar, yəqin ki, bizi yaxşı tanıyırsınız. Amma biz bu dəfə bir-birimizlə mübahisə etməyə deyil, sizinlə görüşə gəlmişik.

**Palıd:** Bizim sizinlə görüşə gəlməyimizin səbəbi ekologiyanın tərkib hissəsi olan biz ağacları sizə yaxından tanıtmaqdır.

**Şam:** Uşaqlar, bildiyimiz kimi biz ağacların üzərinə düşən məsuliyyət olduqca böyükdür. Bizlər havanı zərərli qazlardan, təmizləyir, onu oksigenlə zənginləşdiririk. Köklərimiz torpağı yumşaldır, onu münbitləşdirir. Bir çoxumuzun oduncağı, yarpaqları, kökləri insanlara böyük fayda verirsə, bir çoxumuzun da verdiyi bəhər, siz uşaqları sevindirir, vitaminlərlə zəngin meyvələrimiz sağlam böyüməyinizə yardımçı olur. Hərçənd ki, bu şərəf hər bir ağaca qismət olmur.

**Palıd:** Unutdunmu, ay dostum, biz bura mübahisə üçün gəlməmişik. Bizim bu alma ağacı da yaman zarafatcıldır. Ancaq onu da deyək ki, biz bura tək gəlməmişik. Respublikamızın bir çox ağacları da sizin görüşünüzə gəlib.

*(Şabalıd, akasiya, dəmirağac, cökə, sərv ağacı səhnəyə daxil olur.)*

**Şabalıd:** Uşaqlar, hamınızı xoş gördük. Mən şabalıd ağacıyam. Deyə bilərsinizmi mən ölkəmizin hansı ərazisində bitirəm?

Afərin. Düz tapdınız. Zaqatala və Qəbələ rayonları mənim məskənimdir.

**Sərv:** Mənsə sərv ağacıyam. Mən ta qədimdən bəri bu odlar diyarında yaşayıram. Mənim insanlara faydam olduqca çoxdur. Meyvələrim, yarpaqlarım, bir çox xəstəliklərə dərmandır. Yəqin bilirsiniz ki, qədim zamanlarda oda sitayiş edən azərbaycanlılar dini saflığa nail olmaq üçün ətirli bitkilərdən istifadə edirdilər. Ətirli iynələrim olduğuna görə mən də Zərdüşt peyğəmbərin ağacı sayılıram. Bu səbəbdən insanlar məni müqəddəs ağac adlandırırlar.

**Dəmirağac:** Mən Dəmirağacam. III dövr relikt

bitkisiyəm. Əgər Talış dağlarına yolunuz düşsə, Hirkan qoruğunda mənə rast gələrsiniz. 200 ilə qədər ömrüm var. Olduqca möhkəm olduğum üçün mənə dəmirağac deyirlər.

**Söyüd:** Uşaqlar, mən də sizə bir tapmaca deyim görək mənim hansı ağac olduğumu biləcəksinizmi?

Əyri-üyrü boy atar, Ayağı yerə batar.

Salxım-salxım sallanar, Altında sarvan yatar.

Afərin uşaqlar mən söyüd ağacıyam. Siz yaman ağıllı uşaqlarsınız.

**Alma:** Uşaqlar, biz ağacların siz insanlara verdiyi fayda olduqca böyükdür. Bu səbəbdən də bizi sevməyinizi qorumağınızı sizdən xahiş edirik.

*(Ağaclar səhnəni tərk edir.)*

Uşaq kitabxanalarında ekologiya, təbiət mövzusunda təşkil olunacaq digər bir tədbirin **“Təbiət fəryad edir” adlı ədəbi-bədii gecə**nin ssenarisini sizə təqdim edirik:

**Təbiət fəryad edir (ssenari)**

Səhnə təbiət dekorasiyası ilə bəzədilir. Dəniz, günəş, ağacların şəkli səhnədə əks olunmalıdır. İki aparıcı səhnəyə daxil olur.

**I aparıcı:** Dünyanın gözəlliyi Dənizlər, meşələrdir,

Hər quşun sarayıdır bir zümrüd mərcan budaq

Dərələrin sükutu göylərinki qədərdir...

Lakin nəyə gərəkdir sükuta qərq olan dağ?

Dağların gözəlliyi

çaylar, şəlalələrdir, çəmənlər, lalələrdir...

Biz dünyaya gəlmişik –bu gözəlliyi duyaq;

Dənizləri, çayları, meşələri qoruyaq!

**II aparıcı:** Biz günəşə, torpağa, dənizlərə övladıq;

Başqa kainatlara, kəhkəşanlara yadıq.

Gözlər zərli şəfəqdən köynək biçibdir bizə...

Meşələr kölgə salıb, Dalğalar layla çalıb

körpə beşiyimizə. Biz dünyaya gəlmişik

bir ana qucağının hərarətini duyaq...

Hər kiçik yarpağı da, Hər ovuc torpağı da,

Bulağı da, Suyu da, Havanı da qoruyaq.

Quşların sığındığı Yuvanı da qoruyaq!

**I aparıcı:** Dünyanın gözəlliyi zəmilər, tarlalardır.

Dünyanın özü boyda sirli aləmi vardır...

Biz yeri sevmişik ki –dumanlı dərələrin,

Ovçuların pusquda durduğu bərələrin

Sükutunu qoruyaq.

Qoruyaq təmkininiçayların da, düzün də,

Zirvələrin qarını, Dağların vüqarını

yaşadaq yer üzündə!

Biz dünyaya gəlmişik Səhraya meşələrdən,

Dərələrə lalədən, Dağlara şəlalədən

özü boyda don biçək.

Günəş piyalələrdə

gülrəng şəfəqlər içək!

Sıxaq uzaq fəzadaulduzların əlini,

Yaradaq yer üzündə

Günəşin heykəlini!

**II aparıcı:** Dünyanın gözəlliyi insandır, qadir insan!

Onsuz nəyə gərəkdir

torpaq, dəniz, asiman?

Hər şüanın sürəti,

Hər zərrənin qüdrəti

insanın əlindədir!

Ulduzların fəzada Mizanlı hərəkəti,

Dənizin səxavəti,

Torpağın bərəkəti

insanın əlindədir!

İnsanın əlindədir Gələcək iqlimlərin,

fəsillərin taleyi!

İnsanın əlindədir

nəsillərin taleyi! Biz insanıq, borcluyuq

Bu həqiqəti duyaq,

Dünyanı,təbiəti,

insanları qoruyaq!

**I aparıcı:** Yüz min illərdir ki, insan təbiətlə ünsiyyətdə və münasibətdədir. Təbiət özünün nəyi varsa – bütün yeraltı və yerüstü sərvətlərini səxavətlə insanın ixtiyarına vermişdir.

**II aparıcı:** Təbiət elə bir varlıqdır ki, onu sevmədən, dərindən öyrənmədən, qorumadan və onun sərvətlərindən şüurlu surətdə istifadə etmədən yaşamaq mümkün deyil.

**I aparıcı:** Tarix boyu aparılan müşahidələr göstərilmişdir ki, təbiət nə qədər zəngin olarsa, maddi nemətlər bir o qədər bol olar, nə qədər gözəl olarsa, o qədər də insan zövqünü oxşayır.

**IIaparıcı:** Təbiət elə bir bəstəkardır ki, Hələ yazılmamış min nəğməsi var. Elə kamandır ki, elə tardır ki, Dünyanı bəzəyən gözəl səsi var.

Hər çiçəkli bağça, hər güllü çəmən Ürək arzusudur, alın təridir.

Bənövşə, qızıgül, lalə, yasəmən Ana təbiətin əsərləridir.

**I aparıcı:** İnsanlar təbiətin zəngin təbii sərvətlərindən bol-bol istifadə edir, ondan çox şey alırlar. Bunun müqabilində isə insanlar təbiətə olduqca az şey bəxş edirlər. Hətta bəzən biz istər-istəməz təbiətə qəsd edir və bəlasını özümüz çəkirik.

**II aparıcı:** Ətraf mühitə fasiləsiz olaraq müxtəlif tullantılar atılır, atmosferi, suyu, torpağı çirkləndirir, havanı zəhərləyirlər. Saysız hesabsız maşın və mexanizmlər səs-küyü çoxaldır, müxtəlif yanacaqlardan intensiv surətdə istifadə nəticəsində suyun, havanın temperaturu yüksəlir.

**I aparıcı:** İnsanların təbiətə, ətraf mühitə laqeyd münasibəti son dərəcə ağır nəticələrə gətirib çıxarır.

**II aparıcı:** Xəzərin, Kürün, havanın çirklənməsi, torpağın yararsız hala düşməsi bu gün həyəcan doğuran problemlərdəndir. Gəlin onların insanlardan şikayətini öz dillərindən eşidək.

*(Səhnəyə torpağın, günəşin, havanın və suyun şikayətini nəql eyləyən 4 oxucu daxil olur.)*

**I oxucu (Günəş):** Mən həmişə yanıram. Mən insanlara işıq, istilik və həyat verirəm. Mən olmasam həmişə gecə olar, qaranlıq olar. Adamlar soyuqdan donub buza çevrilər. Yer üzərində yaşayan bütün insanlar, heyvanlar, bitkilər mənim qonağımdırlar. Mənsiz təbiət məhv olar. İnsanlar yer üzərində məni odun rəmzi kimi qəbul edirlər. Çünki mənim şüalarım torpağı canlandırır, bitkiləri inkişaf etdirir.

**II oxucu (Torpaq):** Günəş, çox gözəl danışırsınız. Sizin mənə böyük köməyiniz dəyir. Amma insanları deyə bilmərəm.

**I oxucu:** Torpaq, deyəsən sən insanlardan gileylisən?

**II oxucu:** Əlbəttə. Mən təbiətin əsas sərvətiyəm. Bərəkətli torpağı olan ölkənin heç nəyə ehtiyacı olmaz. Mən insanlara gözəl nemətlər bəxş edirəm. Onları qayğıkeş bir ana kimi bəsləyir, yedirdir, içidir, geyindirir, hətta isti qoynumda onlara sığınacaq da verirəm.

**I oxucu:** Torpaq, düzdür. Amma axı sən də bu sərvətləri onlara elə-belə, havayı vermirsən.

**II oxucu:** Məndən o sərvətləri almaq üçün zəhmət çəkmək, alın təri axıtmaq, mənlə bağlı peşə və sənətlərə yiyələnmək lazımdır. Mən çox dözümlüyəm, təmkinliyəm. Özüm onlara qayğı göstərdiyim kimi onlardan da qayğı gözləyirəm. Son vaxtlar bu qayğını görmürəm. Mənə arxa çevirmək oturduğun budağı baltalamaq deməkdir.

**I oxucu:** Deməli, insanlar səni yararsız hala salırlar?! Bu ola bilməz. Axı insan yarandığı gündən sənə arxalanır, sənə güvənir. Sən onların həm ilkin beşiyi, həm də son ünvanısan.

**IIIoxucu (Hava):** Günəş, deyəsən, sənin çox şeydən xəbərin yoxdur.

**I oxucu:** Sənə nə ediblər ki?

**III oxucu:** Daha nə edəcəklər? Mən onlara lazım olan havayam. Mənim təmizliyim insanlara daha çox lazımdır. Onlar isə məni sənaye və kənd təsərrüfatının tullantıları ilə

çirkləndirirlər. Bu tullantılar, avtomobillərin tüstüsü, partlayıcı maddələrin tərkibi məni çox incidir. Hətta ozon qatının deşilməsinə gətirib çıxardıb. Məni qorumadıqları üçün mən onlardan narazıyam. Onlar məni çirkləndirməkdənsə, ağacları qorusalar daha yaxşı olar.

**I oxucu:** Yəqin ki, sizin kimi dənizlərin, çayların da insanlardan şikayəti var.

**IV oxucu (Su):** Bizim də şikayətimiz var. Mən insanlar üçün müqəddəs sayılıram. Mən safam, təmizəm. Yanan qəlblərə sərinlik gətirirəm. Mən olmasam yerlərdə natəmizlik olar, xəstəliklər baş alıb gedər. Lakin insanlar məni qiymətləndirə bilmirlər. Belə bir məsəl eşitmişəm. Adam su içdiyi quyuya tüpürməz. İndi nəinki mənə tüpürürlər, əllərinə nə keçirsə atırlar. Mənim dənizlərimə, çaylarıma milyonlarla zəhərli maddələr axıdır, mənim qiymətli sərvətlərimi məhv edirlər. Mən fəryad qoparıram, insanları imdada çağırıram.

**I oxucu:** Deməli, günahkar insandır. Təbiətin bütöv bir hissəsi olan insan… Gəlin son anda əl saxlayın. Axı siz təbiəti qorumasanız təbiət sizi məhv eləyər. Çünki təbiət insanın ona qarşı səhvini heç vaxt bağışlamır. Ey insanlar, bizim qədrimizi bilin!

*(Səhnəyə aparıcılar daxil olur)*

**I aparıcı: C**anlı aləmin yaşaması üçün hava, torpaq və su ən vacib komponentlər olduğu halda biz onu niyə qorumuruq? Artıq sözdən işə keçmək vaxtıdır. Bir halda ki, təbiət insana yaşamaq üçün verilibsə biz ona niyə biganə qalaq?

**II aparıcı:** Gəlin əl-ələ verib doğma yurdumuzun ekoloji şəraitini yaxşılaşdıraq. Əgər biz bu gün təbiətlə bir israfçı kimi davransaq gələcək bunu bizə bağışlamayacaq.

*(Təbiətlə bağlı musiqi səslənir.)*

**Qeyd:** *Hazırlanmış ssenaridən kitabxanaçılar tədbir hazırlarkən öz kitabxanalarının şəraitinə və imkanına uyğun səhnəcikdən istifadə edə bilərlər. Tədbirin sonunda "Meşəyə insan gəlir" cizgi filmini də nümayiş etdirmək olar.*





**Təbiət hadisələri haqqında tapmacalar**

Ağ sandığım açıldı,
İçindən nur saçıldı. (Sübh çağı)

Ağ tas, qızıl tas
Birini götür, birini as. (Ay və günəş)

Ayağı yoxdur qaçır,
Qanadı yoxdur uçur. (Bulud)

Araba gedər izi yox,
Yanar-yanar közü yox. (Günəş)

Bayırda sağdı Pambıqdan ağdı. Evə gələr,
Suya dönər. (Qar)
Bir ağacım var 12 budağı Hər budağın yeddi yarpağı. Hər yarpağın bir üzü qara
Bir üzü ağ. (İl, ay, gün)

Bir kişinin 4 evi var Biri yaşıldır, o biri al.
Biri sarıdır, o biri ağ. (Fəsillər)

Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz. (Külək)

Yer üzünün qarası,
Ağacların anası. (Torpaq)

Göy üzü damar-damar,
Göydən yerə nur yağar. (Yağış)

Göydə gəzər qalaq-qalaq,
Gah tutqundur, gah da ki, ağ. *(Bulud)*

Göydən yerə buz yağır. Görün necə düz yağır. Fındıq boyda, qoz boyda,
Görmədim qarpız boyda. *(Dolu)*
Gün çıxanda yox olur,
Gün batanda çox olur. *(Ulduz)*

Mən aşiqəm, düz yerdə O göydədir, biz yerdə. O yer olmaz keçməsin,
Salmaz bircə iz yerdə. *(Ay)*
Uzun hacı, kök hacı,
Duman başının tacı. *(Dağ)*

Aləmə işıq salır,
Axşam gül kimi solur. *(Günəş)*

Alçacıq quyu,
Dambıldar suyu. *(Damcı)*

Anam atlandı, Xalı qatlandı, Quyruq bulandı,
Qum səpələndi. *(Yağış)*

Atdım atana, Dəydi kotana, Suda balığa,
Düzdə ceyrana. *(İldırım, dolu)*

Burdan vurdum baltanı, Ordan çıxdı qaltanı, Anam bir oğlan doğdu,
Yerin, göyün soltanı. *(Ay və ya gün)*

Eşiyə bir ağac düşüb, Nə qolu var, nə budağı, Bir quş gəldi, onu yedi,

Nə dili var, nə dodağı. *(Qar, Günəş)*

Ayağından aldırmaz,

Ağzına yüyən vurdurmaz. *(Yel)*

Bir kilim var min bir naxışlı,

Yel baba süpürər payızı-qışı. *(Yer)*

Bir quşum var alaca, Getdi qondu ağaca. Özünə yuva tikdi,

Nə qapı qoydu, nə baca. *(Barama, balqabaq)*

Yerə vurdum baltanı, Ağzı gümüş xaltanı. Yerdən bir oğlan çıxdı,

Cümlə cahan soltanı. *(Su, Ay, gün, taxıl və s.)*

Başını kəsdim qanı yox,

Cücələrinin sanı yox. *(Darı, xaş-xaş, xalça və s.)*

İnsanların ətraf mühitlə ahəngdar mövcudluğunun dərki və bunun əhəmiyyətini oxuculara çatdırılmasında gözəl nəticə verən tədbirlərdən biri də **oxucu konfransları** və **yeni kitabların təqdimatını** göstərməkdir. “Mənim şəhərim və ekologiya”, “Meşələri qoruyun, təmiz hava udun”, “Təbiətin şəfaverici bitkiləri”, “Dərdimizə dərman bitkilər”, “Tükənməkdə olan nadir ağaclar”, “Təbiət və insan”, “Azərbaycanda qoruqlar və yasaqlıqlar”, “Torpağımız, suyumuz və havamız”, “Müharibə və ekologiya”, “Müharibə və ekoloji vandalizm” və s. mövzularda oxucu konfransı keçirmək olar. Kitabxanada oxucu konfransının keçirilməsi üçün qabaqcadan ayrıca proqram tutulmalıdır. Proqramda keçiriləcək tədbirin adı, giriş sözü, məruzəçi və eləcə də çıxış edəcək digər şəxslərin adları göstərilməlidir. Bunlarla yanaşı tədbirin harada və nə vaxt keçiriləcəyi də qeyd edilməlidir. Kitabxanaçı ilk növbədə aktual mövzuları günün tələblərindən irəli gələn məsələləri nəzərdən qaçırmamalıdır.Konfransın mövzusu üzrə fondda olan kitabların bir neçəsini seçib məruzəçiyə hazırlaşmaq üçün tövsiyə etməlidir. Kitabxanaçı konfransda çıxış edəcək hər bir oxucunu da kitabla təmin edib, keçirilmiş məsələlərdən danışmalıdır. Oxucu konfransının gedişatı haqqında **protokol** yazılmalıdır, həmin protokol və məruzəçinin çıxışının mətni kitabxanada saxlanılmalıdır.




Əyani təbliğat vasitəsi olan **kitabxana plakatları** və **kitab sərgiləri** vasitəsilə də ekoloji bilikləri təbliğ etmək olar. Kitab sərgisindən fərqli olaraq, plakatda az sayda ədəbiyyat (məsələn, 5-6 kitab, jurnal və qəzet məqaləsi) nümayiş etdirilir. Plakatın əsas ünsürləri kitabların özü deyil, onların üz qabığı (əl ilə çəkilmiş, yaxud fotoşəkil) bir neçə sitat, mətn və plakatın əsas ideyasını açan qısa, mənalı başlıqlardır. Plakatın tərtibində kitablara çəkilmiş illüstrasiyalar da əks etdirilir. Ədəbiyyatın qısa annotasiyası mütləq verilməlidir. Annotasiyalar kitabların ideya və məzmununun açılmasına kömək edir. Plakat yeknəsəklikdən, şablonçuluqdan uzaq olmalı və oxucuya ifadəli, aydın, gözəl təsir bağışlamalıdır.

***"Ekologiya, ətraf mühit və insan" adlı kitabxana plakatının nümunəsini veririk:***

Sitat: Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq, üzərimizə düşən başlıca vəzifələrdəndir.

**Heydər Əliyev,**

*Azərbaycan xalqının ümummilli lideri*

**Başlıq: Ekologiya, ətraf mühit və insan**

1. **Məmmədov, Q.S. Ekologiya, ətraf mühit və insan**

/Q.S.Məmmədov, M.Y.Xəlilov.-B., 2006. Kitabın üz qabığı (fotoşəkil) və qısa annotasiyası verilir. Kitabda dünyada ekologiya elminin inkişaf tarixi, müxtəlif səviyyələrdə təbii sistemlərin əsas qanunauyğunluqlarından bəhs olunur. Eyni zamanda insan tərəfindən təbii ekosistemlərin fəaliyyət prinsiplərinin pozulması və onun ekoloji nəticələri; kütləvi qırğın silahları, müharibələr, nüvə silahları, ekoloji qəzaların, təbii fəlakətlərin ətraf mühitdə nəticələri, zərərli sosial faktorların insanın sağlamlığına təsirindən söhbət açılır.

**Abbasova, E. İnsan ekologiyası: bioloji və sosioloji aspektlər**

.-B., 2005.-121 s. Kitabın əl ilə çəkilmiş şəkli və annotasiya: Kitabda insan ekologiyası: təbii ekoloji amillərin qarşılıqlı nisbəti eyni zamanda ekoloji gərginlik və genofondun məhvi təhlükəsi problemləri araşdırılmışdır. Kitabda insanların, ekoloji etikanın formalaşmasında mənəvi-etik normaların mövqeyi və rolu da nəzərdən keçirilmişdir.

1. **Bağırov, N. Azərbaycanın təbiətini gələcək nəsillər üçün qoruyub saxlamalıyıq: Bu ulu öndərimizin bizə vəsiyyətidir**

//Azərbaycan.-2006.-4 iyun.-S.6. Məqalə və ona aid annotasiya. Məqalədə ölkəmizin müstəqilliyinin qorunub saxlanılmasında, iqtisadiyyatımızın sürətlə inkişaf etdirilməsində və xalqın rifahının yüksəldilməsində danışılır.

Sitat: Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquq pozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

***Azərbaycan Respublikasının Konstitusiyası,***

***39-cu maddə, II bənd***

**Əmirov, F.Ə. Məhsuldar meşələrin yetişdirilməsi**

/F.Ə.Əmirov.-B.: Azərbaycan, 2003.-184 s. Azərbaycanın müxtəlif təbii sərvətləri arasında meşələr əsas yer tutur. Kitabda elmin, texnikanın inkişafı xalq təsərrüfatının oduncağa olan ehtiyacının durmadan artması nəticəsində meşə müəssisəsinin qarşısında meşə sərvətlərinin bərpası, səmərəli istifadəsi və məhsuldarlığın artırılması kimi vacib tələblərdən söhbət açılır. Sitat: Meşə çoxdursa, qoru bərk, əgər yoxdursa, onda ək!

Böyük yaş qrup oxucularının təbiət haqqında biliklərinin zənginləşməsində, onların təbiətdə olan gözəllikləri dərketmə qabiliyyətinin formalaşmasında ədəbiyyatın da rolu böyükdür. Bədii əsərlərin oxunması uşaqların ekoloji məlumatlarını zənginləşdirir, təbiəti duymaq hissini formalaşdırır. Böyük yaş qrup oxucular üçün **biblioqrafik icmal** keçirmək məqsədəuyğun hesab olunur. Biblioqrafik icmalı keçirməkdə məqsəd oxucuları müvafiq çap əsərləri ilə tanış etmək və kitabları təbliğ etməkdən ibarətdir. İcmal zamanı kitabxanaçı kitab haqqında qısa məlumat verməli, oxucularda bu kitablara həvəs oyatmalıdır.

Böyük yaş qrup oxucular üçün **"Uşaqların Ekoloji Məhkəməsi"** kitabının biblioqrafik icmalını keçirmək məqsədəuyğun hesab olunar. "Tutu" Uşaq Mədəniyyət Mərkəzinin "Uşaqların Ekoloji Məhkəməsi" adlı tədris layihəsi çərçivəsində yeniyetmələr üçün maraqlı rol oyunu hazırlanıb sınaqdan keçirilmişdir. "Uşaqların Ekoloji Məhkəməsi" kitabı üç hissədən ibarətdir. Hər kitab bir oyundan bəhs edir. Bu oyundan məktəblilər məhkəmə hakimi, iddiaçı, vəkil, müstəntiq, ekspert, istintaq qrupunun üzvü və hətta ekoloji cani kimi rollarda çıxış edirlər. Onlar gerçək məhkəmənin işini tam yamsılayır, ətraf mühiti qanunla qorumağı öyrənirlər.

Birinci kitab içməli suyun çirklənməsindən və insanlara dəyən zərbədən, ikinci kitab yaşıllıqların məhv edilməsindən, üçüncü kitab dövlət qoruğu ərazisində neft hasilatı ilə məşğul olanlardan bəhs edir. Bu kitablar uşaqları birləşib təbiətə, ətraf mühitə düşmən kəsilənlərə qarşı mübarizə aparmağa səsləyir. "Uşaqların Ekoloji Məhkəməsi" uşaqları ekoloji və hüquqi biliklərlə bilgiləndirir. Ümumiyyətlə, kitabxanada belə tədbirlər təşkilində əsas məqsəd gənc nəsildə ekoloji tərbiyənin formalaşmasını, onlarda doğma vətənə məhəbbət, təbiətə qayğı hisslərini bir daha möhkəmlətməkdir.

Böyük alim və ziyalı akademik Həsən Əliyev təbiətşünaslıq və ekologiya elminin bir çox sahələrində ömrünün sonuna qədər tədqiqat aparmış, yüzlərlə elmi əsərlərin və təbiət abidələrinin müəllifi olmuşdur. Təbiətin qorunması məsələsinin ağrılı bir problem kimi üzə çıxdığı bir vaxtda akademik **Həsən Əliyev "Həyəcan təbili"** (1976) əsərini yazdı. O, burada Azərbaycanda təbiətin kəskin deqradasiyaya uğramasını və onun qarşısının alınmasına böyük ehtiyac olduğunu göstərmişdir. Akademikin fikrincə, təbiəti qorumaq həm dövlətin, həm də hər bir vətəndaşın işi olmalıdır. Alimin əsərlərinin əsas qayəsi gənc nəsildə vətənə, xalqa, təbiətə, ətraf aləmə məhəbbət hissləri aşılamaqla gənclərin ekoloji tərbiyəsini formalaşdırmaq olmuşdur. Onun əsərlərinin təbliği, xüsusilə də aktual olan "Həyacan təbili" kitabının təbliği çox vacibdir. Akademik H.Əliyevin davamçıları olan alimlərdən Ekologiya və Təbii Sərvətlər naziri H.Bağırov, Coğrafiya İnstitutunun direktoru, akademik B.Budaqov, A.Nadirov, U.Ələkbərov, Ə.Nuriyev, S.Qarayev, N.Nəbiyev, N.İmanov, Z.Məmmədov, Ş.Göyçaylı, İ.İsmayılov, F.Hacızadə, İ. Həbibov və başqaları onun bu xeyirxah işlərini müvəffəqiyyətlə davam etdirirlər. Ekologiya ilə bağlı yazılmış əsərlərin təbliği ilə əlaqədar kitabxanaçı oxucuları bu görkəmli alimlərimizin kitabları ilə tanış etməli, qaldırdıqları problemləri kütləvi tədbirlərin müxtəlif formalarından istifadə etməklə gənc nəslə çatdırmalıdırlar.

***Ekoloji təqvim***



Dünyada insanlar tərəfindən hər il qeyd olunan müxtəlif ekoloji günlər var. Belə günlərin qeyd olunmasının məqsədi ictimaiyyətin diqqətini planetimizdə olan ekoloji problemlərə cəlb etməkdir. Bunlardan ən məşhurları Ətraf Mühitin Mühafizəsi, Su, Yer, Parklara yürüş, Ozon Qatının Qorunmasıdır.

2 fevral – Ümumdünya Su – Bataqlıq hövzələri Günü 21 mart – Meşələr Günü

22 mart – Ümumdünya Su Resursları Günü 23 mart – Ümumdünya Meteorologiya Günü 1 aprel – Beynəlxalq Quşlar Günü

15 aprel–5 iyun – Ekoloji Təhlükədən Müdafiə Günləri 18-22 aprel – Parklara Yürüş Günü

22 aprel – Yer Günü

12 may - Ekoloji Təhsil Günü

15 may – Beynəlxalq İqlim Günü

22 may – Beynəlxalq Bioloji Müxtəliflik Günü

23 may – Ekologiya və Təbii Sərvətlər Nazirliyi əməkdaşlarının peşə bayramı

5 iyun – Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü

17 iyun – Ümumdünya Səhralaşma və Quraqlıqla Mübarizə Günü

6 sentyabr – Beynəlxalq Ozon Təbəqəsinin Qorunması Günü 27 sentyabr – Ümumdünya Turizm Günü

22-28 sentyabr – Ümumdünya Dəniz Günü

3-4 oktyabr – Ümumdünya Quşların Müşahidəsi Günü 4 oktyabr – Ümumdünya Heyvanların Mühafizəsi Günü

9 oktyabr – Beynəlxalq Təbii Fəlakətlərdən Müdafiə Günü

6 noyabr – Beynəlxalq Müharibə və Silahlı Konfliktlər Zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması Günü

Ümummilli liderimiz Heydər Əliyevin təbiətə qayğısı hamı üçün nümunə, həyat məramı olmalıdır.

**Ulu öndərin "Kim bir ağac kəssə, sanki mənim qolumu kəsir"- sözlərini heç vaxt unutmamalıyıq.**

Müxtəlif ekoloji günlərin qeyd olunmasının məqsədi ictimaiyyətin diqqətini planetimizdə olan ekoloji problemlərə cəlb etməkdir. Belə günlərdən biri Ətraf Mühitin Mühafizəsi və Beynəlxalq Yer Günüdür. Tədricən bu bayram beynəlxalq xarakter alaraq, hazırkı dövrdə yüz əlliyə yaxın ölkədə, o cümlədən respublikamızda qeyd olunur. Bu günlər insanlar müxtəlif ekoloji tədbirlərdə iştirak etməklə ağaclar əkir, yaşıllıqlara qulluq edir, yaşadıqları əraziləri müxtəlif tullantılardan təmizləyirlər. Ekoloqlar ətraf mühitin sağlamlaşdırılmasına yönələn kütləvi aksiyalar keçirməklə, informasiya vasitələrində çıxışlar etməklə əhalini ətraf mühitin mühafizəsi sahəsində daha fəal olmağa çağırırlar. Uşaq kitabxanaları tərəfindən hər il 5 iyun Ətraf Mühitin Mühafizəsi Günündə və 22 aprel "Yer Günü" ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirilməli, ətraf mühitin mühafizəsi sahəsində ictimaiyyət arasında təbliğat işləri aparmalıdır. Kitabxanalar "Yer Günü"nün yüksək səviyyədə qeyd olunması ilə əlaqədar xüsusi tədbirlər planı hazırlayaraq həyata keçirməlidir. Xidməti ərazisində təmizlik-abadlıq işlərinin aparılması və yaşıllıqlara qulluq edilməsi məqsədilə kitabxananın işçiləri öz xidməti ərazilərində ictimaiyyətin nümayəndələrinin iştirakı ilə iməcliklərin keçirilməsi məqsədəuyğundur. Deməli, ekologiya canlı orqanizmlərin, eləcə də insanların təbiətə, ətraf mühitlə qarşılıqlı münasibətini öyrənən elmdir. Bizi əhatə edən aləmin quru, boş çöllərə və təmiz su hövzələrinin çirkab göllərə çevrilməməsi üçün düşüncə sahibi olan hər bir insan təbiətə qarşı qayğı ilə yanaşmalıdır. Ekologiyanın təmizliyi insanların sağlamlığı deməkdir.

## Ədəbiyyat siyahısı

**Azərbaycan**. - Bakı : "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2007. - 884 s. : foto, rəngli foto, xəritə. – Ensiklopediyanın Azərbaycana həsr olunmuş bu cildində ekologiya mövzusu da öz əksini tapmışdır.

**Babayev İ.** Bioloji müxtəliflik: Xəzərin Azərbaycan hissəsinin suda üzən quşları = Biodiversity: Waterfowl in Azerbaijan sector of the Caspian sea. - Bakı : Nurlar, 2007. - 136 s. : rəngli foto. - Azərbaycan və ingilis dillərində.

**Babayev M.** Ekoloji genetika. - Bakı : Nurlar, 2004. - 208 s. : şək.

**Bədəlova Ə.** Azərbaycan xalq pedaqogikası : Mühazirə mətnləri və seminar məşğələləri üçün materiallar. - Bakı : Müəllim, 2009.

- 188 s.

**Beşdilli İzahlı Ekologiya** Lüğəti = Five - Lingual Ecological Explanatory Dictionary = Пятиязычный Экологический Толковый Словарь. - Bakı : Təknur, 2004. - 188 s. - Azərbaycan, rus, gürcü və ingilis dillərində.

**Əhmədov Ə. R.** Torpağın ekologiyası : (Torpağın redusent orqanizmlərinin biosenoz funksiyası). **IV hissə**. - Bakı : Şirvannəşr, 2006. - 154 s.

**Əkbərov R.** Nizami Gəncəvinin tibbi-fəlsəfi və sosial-ekoloji görüşləri - Bakı : Mütərcim, 2004. - 176 s.

**Ekologiya və kitabxanaların** qarşısında duran vəzifələr : metodik göstərici / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2009. - 56 s.

**Ekoloji dərnək, klub** və digər birləşmələrin nümunəvi tədris proqramları və metodik tövsiyələr : V-XI siniflər üçün metodiki vəsait / Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi. - Bakı : Nərgiz, 2007. - 147 s.

: foto.

**Ekoloji əlifba** / “Gülüm” Uşaq Ekoloji Təşkilatı (Azərbaycan).

- Bakı : Gənclik, 2003. - 33 s. - (“Xəzər” Uşaq Ekoloji Proqramı).

**Ekoloji təhsil mərkəzi** = Layihə: Ekoloji biliklərin artırılması və təhsil mərkəzinin yaradılması / Qafqaz Regional Ekoloji Mərkəzi. - Bakı : [s. n.], 2005. - 33 s.

**Ələkbərov U.** Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları : Ali məktəblər üçün dərslik. - Bakı : Təhsil, 2013. - 224

s. : rəngli foto, cədv.

**Ələkbərov U.** Ekologiya. Dünyamızın bu günü və sabahı. - Bakı

: Ayna Mətbu Evi, 2000. - 80 s. : rəngli il. - (Ayna Uşaq Ensiklopediyası).

**English-Russian-Azerbaijan Glossary of** Terms Used in Environmental Enforcement and Compliance Promotion = Англо-русский-азербайджанский словарь-справочник терминов, используемых в системе контроля за исполнением экологического законодательства = İngilis-rus- azərbaycan ekoloji qanunvericiliyin icrasına nəzarət sistemində işlənən terminlərin lüğət-məlumat kitabçası / Organisation for economik cooperation and development, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Организация Экономического Сотрудничества и Развития. - Bakı : REM Qafqaz, 2003. - 306

s. - Azərbaycan, rus və ingilis dillərində.

**Əsədov, A. Ə.** Ekologiya hüququ : dərslik. - Bakı : Adiloğlu, 2007. - 512 s.

**Hər sətirdə bir** günəş... : Məktəbəqədər müəssisələrdə ekologiyanın tədrisi üzrə metodik vəsait / "Azərbaycan XXI əsrdə" Uşaq Ekoloji Təşkilatı. - Bakı : [s. n.], 1999. - 102 s.

**Həsənli O.** Şagirdlərin ekoloji tərbiyəsi. - Bakı : Mütərcim, 2007. - 212 s. : cədv., rəngli foto.

**"Xəzər" ekoloji proqramı.** Ekoloji oyunlar : 5-7 yaşlı uşaqların ekoloji təhsili ilə bağlı oyunlar toplusu / "Spektr" İmeret rayonunun alimlər birliyi (Gürcüstan.) "Gülüm" Uşaq Ekoloji Təşkilatı (Azərbaycan). - Bakı : Gənclik, 2001. - 16 s.

**İnsan və biosfer** (MaB, YUNESKO). Azərbaycan milli komitəsinin əsərləri : Ekoloji sivilizasiya, davamlı inkişaf, ətraf mühit = Proceedings of the "Man and Biosphere" (MaB, UNESCO) Azerbaijan National Committee : Ecological civilization, sustainable development, environment = Труды Азербайджанского Национального Комитета "Человек и Биосфера"( МаВ, ЮНЕСКО) : Экологическая цивилизация, устойчивое развитие, окружающая среда / YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, "İNSAN və BİOSFER" (MaB, YUNESKO) Azərbaycan Milli Komitəsi. - İllik nəşr, 8-ci buraxılış. - Bakı : Təhsil, 2012. - 352 s. : cədv., qraf. - Azərbaycan, ingilis və rus dillərində.

**İsmayılov Ç.** Xəzər dənizinin və sahilyanı ərazilərin ekologiyası / Ç. N. İsmayılov ; red. İ. Qasımzadə. - Bakı : Ayna Mətbu Evi, 2005. - 117 s. : rəngli şək.

**Məmmədov Q.** Azərbaycanın ekoetik problemləri: elmi, hüquqi, mənəvi aspektlər. - Bakı : Elm, 2004. - 380 s. : xəritə, il.

**Məmmədov Q.Ş.** Ekologiyanın etik problemləri və onların həlli yolları // Bioetika, elm və texnologiyaların etikası problemləri : Məruzələr toplusu - Bakı : Elm, 2005. – S.145-169.

**Məmmədova X.** Uşaq bağçalarında ekoloji tərbiyə : metodik vəsait / Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. - Bakı : Çaşıoğlu- Multimedia, 2009. - 120 s. : rəngli il.

**Rəhimov S.** Turizm-ekskursiya işinin təşkili : dərs vəsaiti. - Bakı : “Mütərcim”, 2004. - 310 s.

**Seyidov N.** İctimai fəal məktəb. Məktəb - İcma - Ailə əməkdaşlığı / N. Seyidov, T. Şərifova, R. Qafarov. - Bakı : [s. n.], 2006. - 86 s. : cədv.

**Sleyd S.** Boz canavarlar olmasaydı? : Mülayim qurşaq meşələrinin ekosistemi haqqında kitab. - Bakı : TEAS PRESS Nəşriyyat evi. “Üç alma uşaq ədəbiyyatı”, 2016. - 27 s. : rəngli foto, xəritə.- (Qida zənciri reaksiyaları). - İzahlı lüğət: s. 25;

**Uşaqların ekoloji məhkəməsi** : Orta və yuxarı sinif şagirdləri üçün vəsait. I proses. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2002. - 96 s. : şək.

**Uşaqların ekoloji məhkəməsi** : Orta və yuxarı sinif şagirdləri üçün vəsait. II proses. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2002. - 88 s. : şək.

**Uşaqların ekoloji məhkəməsi** : Orta və yuxarı sinif şagirdləri üçün vəsait. III proses. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2002. - 88 s.

**Yaşıl kitab :** Dağlar, düzlər, çöllər, çəmənlər, çaylar, dənizlər, ağaclar, yamaclar. uçanlar. üzənlər. qaçanlar... bir sözlə, təbiət haqqında kitab : Təbiəti tanımaq, sevmək və qorumaq istəyən azyaşlı məktəblilər üçün (ensiklopedik məlumat) / foto F. Əşrəfoglu. - 1-ci nəşr. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 1998. - 28 s. : rəngli il.

# Təbiəti qorumaq Vətəni qorumaq deməkdir!

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**